


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 162 (8478) ÇƏRŞƏNBƏ AXŞAMI, 18 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## İlham Əliyev çevik və şəffaf iqtisadi idarəetmə modeli yaradır

### Ən islahatçı Prezident iqtisadiyyatın liberallaşdırılması istiqamətində atdığı addımlarla Azərbaycanın gələcək yüksəlişi üçün güclü baza formalaşdırır

Qlobal böhran dünya iqtisadiyyatına getdikcə daha ciddi mənfi təsir göstərməkdədir. İnkişaf etmiş ölkələrin iqtisadiyyatındakı tənəzzülün 20 faizə qədər yüksəlməsi bunu təsdiqləyən reallıqdır.

Təbii ki, böhran Azərbaycan iqtisadiyyatından da yan keçməyib. Koronavirus pandemiyasının doğurduğu fəsadlar və neftin qiymətinin aşağı düşməsi, eləcə də OPEC+ çərçivəsində Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi iqtisadi sahədə bir sıra geriləmələrə və itkilərə səbəb olub. Bəzi ölkələrdə iqtisadi tənəzzül 10-20 faiz olduğu halda, ölkəmizdə son altı ayda iqtisadiyyat cəmi 2,7 faiz aşağı düşüb. Lakin bu tənəzzül ölkə Prezidenti cənab İlham Əliyevin hər zaman reallaşdırdığı genişmiqyaslı islahatlara ciddi təsir göstərə bilmədi və bu gün həyata keçirilən struktur islahatları da bunun bariz təcəssümüdür.

#### İstənilən böhranla mübarizə aparmağa qadir olan dövlət

Cənab İlham Əliyevin son illərdə həyata keçirdiyi mütərəqqi islahatlar ölkəmizin gələcək inkişafını təmin edəcək güclü iqdisadi baza formalaşdırdı. İqtisadi islahatlar keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu islahatlarla Azərbaycan Dünya Bankının reytinqi əsasında 25-ci pilləyə yüksəldi. Bu, ən yaxşı investisiya mühitinə malik olan 25 ölkədən biri olmaq deməkdir. Eyni zamanda Azərbaycan dünyada ən çox islahat aparan 10 ölkədən biri elan olundu.

Bu islahatlarla vergi, gömrük sistemindəki yeniliklər, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə bağlı vergi sistemində edilən dəyişikliklər, kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi, o cümlədən mikro və kiçik sahibkarlar üçün yeni vergi güzəştlərinin tətbiqi həyata keçirildi ki, bu da sahibkarların vergi güzəştlərindən istifadə imkanlarının genişləndirilməsinə şərait yaratdı.

Beynəlxalq reytinq təşkilatları, maliyyə qurumlarının hesabatlarında 2020-ci və 2021-ci illər üçün Azərbaycanın 3 faizdən çox iqtisadi artıma nail olacağı proqnozlaşdırılırdı. Bu da təbii ki, iqtisadi artım tempinin yüksəlməsi demək idi. Yəni cənab İlham Əliyevin islahatları nəticə etibarı ilə qarşıdakı illər üçün Azərbaycana iqtisadi inkişaf baxımından yeni imkanlar yaratdı.

Əldə edilən bu imkanlar bütün sahələrdə dəyişikliklərin baş verməsini təmin etdi və inkişafla bağlı müsbət dinamikanın əldə olunmasını şərtləndirdi. Ancaq gözlənilmədən dünyanı çənginə alan qlobal pandemiya ilə mübarizə tədbirləri bütün ölkələr kimi Azərbaycan dövləti üçün də əlavə xərclər yaratdı. İnsan sağlamlığının qorunmasını hər zaman siyasətinin prioriteti hesab edən Prezident İlham Əliyev iqtisadiyyatı deyil, vətəndaşın sağlıq durumunu əsas tutaraq qabaqlayıcı tədbirlərin görülməsi üçün mühüm qərarlar qəbul etdi. Ölkədə tez bir zamanda yeni xəstəxanaların, maska və digər tibbi ləvazimatlar istehsal edən müəssisələrin tikilməsi, təcili tibbi yardım avtomobillərinin alınması, habelə maddi yardımların verilməsi, iş yerlərini və gəlirlərini itirmiş şəxslərə kompensasiyaların ödənilməsi üçün maliyyə vəsaiti ayrıldı. Eyni zamanda ölkədə heç bir sosial layihə təxirə salınmadı. Regionlarda yol infrastrukturu, içməli su təminatı, yeni sosial iaşə obyektlərinin tikintisi davam etdirildi. Hazırda digər sosial layihələr həyata keçirilməkdədir.

Bu layihələrin, islahatların reallaşması üçün Azərbaycan heç bir beynəlxalq təşkilatdan maliyyə yardımı almayıb. Dünya ölkələrinin əksəriyyəti maddi yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət etdiyi halda, Azərbaycan heç kimdən yardım almadan, öz imkanları hesabına yaşayır. Hətta dövlətin xarici borcu da əksər ölkələrlə müqayisədə aşağı səviyyədədir.

Bütün bunlar, əlbəttə ki, Prezident İlham Əliyevin iqtisadi islahatlari nəticəsində əldə edilən bazanın hesabına reallaşır. Dövlət başçısının söylədiyi kimi, bununla da Azərbaycan istənilən böhranla mübarizə aparmağa qadir olan dövlət olduğunu təsdiqləyir.

#### Müasir çağırışların tələbi - iqtisadiyyatın liberallaşdırılması

Ümumiyyətlə, son 17 il ərzində cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar, ilk növbədə, iqtisadiyyatın səmərəliliyinin daha da artırılması məqsədlərinə xidmət edib. Bu istiqamətdə ölkədə institusional və tənzimləyici çərçivə təkmilləşdirilib, milli iqtisadiyyatın özəyi olan təsərrüfat strukturlarında idarəetmənin sağlam prinsiplər əsasında inkişafı və tam şəffaflaşması üçün möhkəm zəmin yaradılıb.

Lakin qlobal böhran göstərdi ki, daha çevik, operativ qərarların qəbul olunması, korporativ idarəçilikdə yeniliklərin tətbiq edilməsi və bəzən mərkəzləşdirilmiş siyasətə üstünlüyün verilməsi yarana biləcək daha böyük problemlərin qarşısının alınmasında öz faydasını verə bilər.

Ardı 5-ci səh.

## Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 4,6 milyon (dörd milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## İndi əsas diqqət «Cənub qaz dəhlizi»nin başa çatmasına yönəldilib

### Layihənin sonuncu seqmenti yekun mərhələsindədir

Təkcə Azərbaycanın və regionun deyil, bütün Avrasiya məkanının enerji təhlükəsizliyində mühüm rol oynayacaq “Cənub qaz dəhlizi”nin çəkilişinin bu ilin sonunadək tamamlanması nəzərdə tutulur. Belə ki, dəhlizin sonuncu - dördüncü seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) inşası yekun mərhələyə qədəm qoyub.

Layihənin üç hissəsi isə artıq uğurla fəaliyyət göstərir. Məlum olduğu kimi, 3500 kilometrlik “Cənub qaz dəhlizi” Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan mavi yanacağı ölkəmizin və Gürcüstanın ərazisindən keçməklə Türkiyəyə, oradan da Avropaya çatdırmaq üçün inşa edilib. “Şahdəniz-2”dən əldə olunacaq illik 16 milyard kubmetr qazın 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri Avropa ölkələri üçün nəzərdə tutulub.

Beləliklə, “Şahdəniz” yatağı “Cənub qaz dəhlizi”nin ehtiyat mənbəyidir. Odur ki, yatağın ikinci mərhələsinin işlənməsi və istismar olunması dəhlizin birinci seqmentini təşkil edir.

Ardı 5-ci səh.

## Dövlət sərhədləri etibarlı qorunur

*“Sərhəd Qoşunlarının möhkəmlənməsi müstəqilliyimizin möhkəmlənməsi deməkdir. Çünki hər bir ölkənin ərazisi onun sərhədindən başlayır. Bizim sərhədlərimiz dost üçün açıq, düşmən üçün bağlı olmalıdır. Azərbaycanın hərtərəfli inkişafı üçün, Azərbaycanda sülhün, sabitliyin, təhlükəsizliyin daha da möhkəmlənməsi üçün sərhəd nəzarəti ən yüksək səviyyədə olmalıdır... Sərhəd bölgələrində olarkən daim sərhəd dəstələrinə baş çəkirəm, vəziyyətlə tanış oluram, sərhədçilərlə görüşürəm. Hər dəfə mən inkişafı görəndə, yeni texnikanı, yeni avadanlığı görəndə bir daha əmin oluram ki, bizim sərhədlərimiz etibarlı şəkildə qorunur.”*

***İlham ƏLİYEV***

XX əsrin əvvəllərində Azərbaycanın sərhəd mühafizə qüvvələrinin formalaşdırılması Şərqdə ilk demokratik respublikanın adı ilə bağlıdır. Milli parlament 1919-cu il avqustun 18-də 99 sərhəd mühafizə postunun yaradılmasını nəzərdə tutan “Azərbaycan Respublikasının sərhəd mühafizəsinin təsis edilməsi haqqında” Qanun qəbul etdi. Azərbaycan Demokratik Cümhuriyyətinin süqutu ilə sərhəd mühafizəsi istiqamətində görülən işlər yarımçıq qaldı. Lakin qısa müddətli fəaliyyət nəticəsində sərhəd və sərhədçi anlayışı dövlət müstəqilliyinin vacib atributu kimi şüurlara həkk olundu.

Azərbaycanın sərhəd mühafizəsinin keyfiyyətcə yenidən təşkili, formalaşdırılması və inkişafı müasir tariximizin yaradıcısı, müasir Azərbaycan dövlətinin qurucusu, dövlətimizin müstəqilliyini əbədi və dönməz edən Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

16 avqust 2000-ci il tarixli sərəncamla əbədiyaşar Lider şanlı yubileyimizin təməlini qoydu: milli Sərhəd Qoşunlarının tarixini kökündən, himindən başladı. Məhz həmin tarixdən başlayaraq 18 avqust - respublikamızda sərhədçilərin peşə bayramı günü kimi qeyd olunur. Bu qərar tarixi varislik prinsipini və milli sərhədçilik yaddaşını bərpa etmişdir. Milli maraqlarımızı daim önə çəkən böyük dövlət xadimi bununla Azərbaycanda dövlətçilik ənənələrinin dərin kökləri olduğunu bir daha göstərdi.

Azərbaycan sərhəd mühafizəsinin tarixi yalnız Azərbaycan sərhədçiləri üçün deyil, xalqımız və qədim ənənələrə malik dövlətçilik tariximiz üçün də əhəmiyyətlidir. Çünki dövlətlərin tarixi həm də onların sərhədlərinin tarixidir. Milli sərhəd mühafizəsini yaşadan və inkişaf etdirən Dövlət Sərhəd Xidməti keçmişinə ehtiram, gələcəyinə inam hissi ilə yanaşır, bu günündən qürur duyur. Bu hisslərin təməlində dövlət sərhədlərinin mühafizəsinə ən yüksək səviyyədə verilən önəm durur. Ulu Öndər Heydər Əliyev sərhədlərimizin toxunulmazlığının təmin edilməsini dövlətimizin mühüm vəzifəsi kimi dəyərləndirmiş, sərhəd mühafizəsinin qarşısında duran vəzifələri, sərhəd siyasətinin konseptual müddəalarını müəyyənləşdirmiş, milli sərhəd strategiyasını yaratmış, bu strategiyanın əməli surətdə həyata keçirilməsini təmin edən konkret fəaliyyət istiqamətlərini göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında ardıcıl həyata keçirilən tədbirlər nəticəsində bu gün ölkəmizdə müasir tələblərə cavab verən güclü sərhəd mühafizə infrastrukturu yaradılmış, dövlət sərhədlərinin etibarlı mühafizəsində mühüm nailiyyətlər əldə olunmuş, Azərbaycan Sərhəd Mühafizəsi peşəkar kadrlarla, müasir silah və texnika ilə təmin edilərək qarşıya qoyulan tapşırıqları ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan qurum səviyyəsinə yüksəlmişdir.

Ardı 4-cü səh.

**◆ Milli maraqlar naminə əməkdaşlıq**

## Hakimiyyət siyasi islahatları uğurla aparır

### Tahir KƏRİMLİ: “Vəhdət Partiyası Azərbaycan Prezidentinin daxili və xarici siyasətini tam və qəti şəkildə dəstəkləyir”

Azərbaycanda son illər cəmiyyət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsi ilə əlamətdardır. İqtisadi, sosial, struktur, məhkəmə-hüquq islahatları vətəndaşlar tərəfindən razılıqla qarşılanır. Bütün bunları isə siyasi islahatlar tamamlayır. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu sahədə reallaşan islahatlar ölkənin siyasi həyatına, iqtidar-müxalifət münasibətlərinə yeni impuls verib.

Bu barədə qəzetimizə açıqlama verən Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli bildirdi ki, cənab İlham Əliyev son prezident seçkilərindən sonra ölkəmizdə bütün sahələr üzrə yeni islahatların həyata keçiriləcəyini bəyan etdi: “Ötən dövrdə həyata keçirilən bu islahatlar sosial-iqtisadi və digər sahələrlə yanaşı, ölkənin siyasi sisteminin, dövlət idarəçiliyinin qanunvericilik və icra hakimiyyəti qollarını da əhatə etdi. O cümlədən siyasi sahədə ən mühüm məsələlərdən biri iqtidarla müxalifət arasında formalaşan yeni siyasi dialoq mühitidir. Bildiyiniz kimi, siyasi və struktur islahatlarının nəticəsi olaraq Azərbaycan Prezidentinin Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradılıb. Belə bir şöbənin yaradılması göstərir ki, ölkənin siyasi rəhbərliyi iqtidarla müxalifət arasında sivil münasibətlərin inkişafında, dövlətimizin maraqlarına xidmət edən siyasi dialoqun qurulmasında maraqlıdır.

Ardı 6-cı səh.

## Azərbaycanda normal həyata keçid sürətlənib

### Koronavirusun lokallaşdırılması istiqamətində görülən qabaqlayıcı tədbirlər müsbət nəticəsini verir

Dünyada pandemiya vəziyyəti davam edir. Aylardır göstərilən bütün səylərə baxmayaraq, insanları təhdid edən təhlükə hələ də ram edilməyib və təəssüf ki, bəşəriyyət COVID-19-la mübarizədə bir addım da önə keçə bilməyib.

Bu qorxulu virusun yayılması hava-damcı yolu ilə olduğu üçün onun qarşısını ala bilmək yalnız profilaktik tədbirlər görməklə, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrinə əməl etməklə mümkündür. Ölkələrdə tətbiq edilən karantin rejimləri yumşaldılan kimi əhalinin tələb olunan qaydalara əməl etməməsi və bu səbəbdən vəziyyətin daha da çətinləşməsi hələ ki reallıqdır.

Ardı 5-ci səh.

## Əhali səfalət içində, Paşinyan isə 1,3 milyon dollarlıq saat taxır

### Rüşvətxorluq və korrupsiyanın bütün sahələrdə dərin kök atması Ermənistanı ağır duruma salıb

Müstəqilliyi formal xarakter daşıyan Ermənistanı idarə edən şəxslər ölkədə korrupsiya və rüşvət sistemini daim genişləndirmələri ilə seçiliblər. Bu xüsusda erməni mediasında kifayət qədər maraqlı məlumatlar yer alıb. İndiki baş nazir Nikol Paşinyanın isə əməllərinə xüsusi diqqət yetirilir. Məsələn, qeyd olunur ki, iki il bundan əvvəl heç nəyi olmayan Paşinyan və ailəsi ötən müddət ərzində Ermənistanda ən varlı insanlara çevriliblər.

Koronavirus pandemiyası əhalinin gəlirlərinin azalmasına, iş yerlərində ixtisarlara və müəssisələrin bağlanmasına səbəb olsa da, bu, baş nazirin rifahına təsir etməyib. Belə ki, Paşinyan 1,3 milyon dollara saat alıb.

Ardı 6-cı səh.

## F.M.Quliyevin Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Faiq Maqbet oğlu Quliyev Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## F.M.Quliyevin Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Faiq Maqbet oğlu Quliyev Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## E.H.Həsənovun iqamətgahı Belqrad şəhərində olmaqla Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Eldar Hümbət oğlu Həsənov iqamətgahı Belqrad şəhərində olmaqla Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## D.A.Həsənovun Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Dursun Ayvaz oğlu Həsənov Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 31 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Novruzlu, Füzuli rayonunun Qorqan, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycanda koronavirus infeksiyasından daha 167 nəfər sağalıb, 124 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 167 nəfər sağalıb, 124 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 34 min 343 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 32 min 42 nəfər müalicə olunaraq sağalıb, 508 nəfər vəfat edib. Aktiv xəstə sayı 1793 nəfərdir. Ötən müddət ərzində 836 min 908 test aparılıb. Dünənki test sayı isə 5153-dür.




## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" hərbi rütbəsi**

general-mayor Araz Məmməd oğlu Məmmədova
general-mayor Firuz Böyükağa oğlu Şirin-zadəyə

**"general-mayor" hərbi rütbəsi**

general-mayor Niyaməddin Məhərrəm oğlu Tağıyevə

polkovnik Aqşin Ramiz oğlu Məhərrəmova
polkovnik Müzəffər Ələsgər oğlu Pirizadəyə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətində tibb sahəsində xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı hərbi qulluqçulara Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar həkim"**

Hacıyeva Tünzalə Əşir qızı - tibb xidməti polkovnik-leytenantı

**"Əməkdar tibb işçisi"**

Ələkbərzadə Rəna Kamil qızı - baş gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Xəlilov Abbas Sultan oğlu - general-leytenant

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Ələkbərov Azad Qaçay oğlu - general-leytenant
Hüseynov Mehman Əliyusif oğlu - polkovnik
Muradov Asif Əhmədağa oğlu - polkovnik
Nağıyev Murad Tofiq oğlu - polkovnik
Şirinov Azər Əliyusif oğlu - polkovnik

**"Vətən uğrunda" medalı ilə**

Babayev Bəhmən Rza oğlu - polkovnik
Əliyev Niyazi Süleyman oğlu - polkovnik
Əliyev Ruslan Novruz oğlu - polkovnik
Rəhimov Rəşad Manaf oğlu - polkovnik
Salamov Samir Akif oğlu - polkovnik
Tağıyev Bəhruz Sabir oğlu - polkovnik
Umarov Füzuli Məhəmməd oğlu - polkovnik-leytenant
Qaybalıyev Vüsal İnşallah oğlu - mayor
Səfərov Elçin Rauf oğlu - mayor
Babanlı Nurəli Səlim oğlu - baş leytenant

**"İgidliyə görə" medalı ilə**

Məmmədov Nahid Məmməd oğlu - polkovnik
Nağıyev Vəli Yusif oğlu - polkovnik
Niftullayev Zaur Rəşid oğlu - polkovnik
Mehdiyev İlkin Hüseyn oğlu - mayor
Məmmədzadə Ömər Əbülfəz oğlu - baş leytenant
Yunisli Ziya Rauf oğlu - baş leytenant
Qasımov Mirağa Hafiz oğlu - kiçik gizir
Mürşüdov Əjdər Sərdar oğlu - kiçik gizir

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Əliyev Xalid Vahid oğlu - polkovnik
Xasiyev Ruslan Mais oğlu - polkovnik
Məmmədov Əyyub Vəli oğlu - polkovnik
Qasımov Yusif Şamil oğlu - polkovnik
Bayramov Zəfər Abbas oğlu - polkovnik-leytenant
Məlikov Vüqar Səfər oğlu - polkovnik-leytenant
Mirzəliyev Rauf Vaqif oğlu - polkovnik-leytenant
Muradov Seymur Nurəddin oğlu - polkovnik-leytenant
Orucov Rövşən İdris oğlu - polkovnik-leytenant
Aslanov Aslan Məhərrəm oğlu - mayor
Baxşəliyev Rüfət Aydın oğlu - mayor
Həsənov Elmir Mircəlil oğlu - mayor
Xəlilov Əsəd Adil oğlu - mayor
Malaxov Fuad Vaqif oğlu - mayor
Məmmədzadə Cavid Nəsir oğlu - ədliyyə kapitanı
Şükürov Mahmud Sabir oğlu - kapitan
Əhmədli Hüseyn Arif oğlu - baş leytenant
Hüseynli Nurlan Yusif oğlu - baş leytenant
Mənəfov Elnur Elsevər oğlu - baş leytenant
Yusifov Elnur Qabil oğlu - baş leytenant
Əliyev Etibar Rəsul oğlu - gizir
Quliyev Cehun Rauf oğlu - kiçik gizir
Məmmədov Asif Fərhad oğlu - kiçik gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı istehsal vasitələri ilə təminatının gücləndirilməsi, ölkədə aqrotexniki xidmətlər göstərilməsi ilə bağlı işlərin səmərəsinin artırılması və sistemliliyinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Aqroservis" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) adlandırılsın.

2. Müəyyən edilsin ki:

2.1. Cəmiyyət kənd təsərrüfatı məhsulları istehsalçılarının, lizinq yolu ilə satılması istisna olmaqla, qanunla müəyyən edilmiş qaydada kənd təsərrüfatı istehsal vasitələri (kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, o cümlədən suvarma sistemləri dəsti və avadanlığı, aqrokimyəvi maddələr, bitki mühafizəsi vasitələri, sertifikatlı toxum və ting) ilə təmin edilməsini, aqrotexniki xidmətlər göstərilməsini və bu sahədə fəaliyyətin təşkilini həyata keçirən kommersiya hüquqi şəxsidir;

2.2. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının, damazlıq heyvanların kənd təsərrüfatı istehsalçılarına lizinq yolu ilə satılmasına dair qüvvədə olan lizinq müqavilələri üzrə hüquq və öhdəlikləri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə (bundan sonra Agentlik) keçir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2.2-ci bəndində nəzərdə tutulan hüquq və öhdəliklərin (lizinq alanların və lizinq obyektlərinin siyahısı, habelə lizinq ödənişləri üzrə borcların məbləği müəyyənləşdirilməklə) altı ay müddətində Agentliyə ötürülməsi üçün tədbirlər görsün;

3.2. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində kənar auditorun və aidiyyəti dövlət orqanlarının (qurumlarının) apardığı yoxlamaların nəticələri nəzərə alınmaqla, mövcud qalıq portfelinin bu Fərmanın 2.2-ci bəndində nəzərdə tutulan hüquq və öhdəliklərinin ötürülməsi zamanı Agentliyin hesabında nəzərə alınmasını təmin etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

4.1. Cəmiyyətin yeni nizamnaməsini üç ay müddətində təsdiq etsin;

4.2. Cəmiyyətin və Agentliyin sərəncamındakı əmlakın kənar auditor təşkilatı cəlb edilməklə qiymətləndirilməsini təşkil etsin və qiymətləndirmənin nəticəsinə əsasən, onların yeni balansı barədə məlumatı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

4.3. bu Fərmanın 2.2-ci bəndində nəzərdə tutulan lizinq müqavilələri üzrə hüquq və öhdəlikləri Agentliyin həyata keçirməsi ilə bağlı aşağıdakı tədbirlərin görülməsini təmin etsin:

4.3.1. mövcud qalıq portfelinin və qüvvədə olan lizinq müqavilələri üzrə əmlakın idarə edilməsini;

4.3.2. lizinq ödənişləri üzrə borcların yığılmasını;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında" 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 iyul tarixli 1084 nömrəli və 10 iyul tarixli 1105 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1.11-ci bəndinə hər iki halda "orqanların" sözündən sonra "və Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318; 2018, № 5, maddə 956) ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 3.1.11-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.1.11. səlahiyyətlərinə aid məsələlərə dair inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görür;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mülki müdafiəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1992-ci il 31 iyul tarixli 93 nömrəli, "Azərbaycan Respublikası vətəndaşlarının alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1992-ci il 31 iyul tarixli 94 nömrəli, "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 15 aprel tarixli 122 nömrəli, "Dövlət gənclər siyasəti haqqında" 1999-cu il 29 iyul tarixli 169 nömrəli, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 614 nömrəli, "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2005-ci il 14 iyul tarixli 258 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 1997-ci il 5 iyun tarixli 595 nömrəli Fərmanının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 iyul tarixli 93 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 15, maddə 641) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mülki müdafiəsi haqqında Əsasnamə"nin 16-cı hissəsinin birinci cümləsində "qrup əlillər" sözləri "dərəcə əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 iyul tarixli 94 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 15, maddə 642; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 761; 2018, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməsi qaydası haqqında Əsasnamə"nin 27-ci maddəsinin 1-ci hissəsinin 3-cü abzasında "III qrup əlili" sözləri "III dərəcə əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3 (I kitab), maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050; 2018, № 10, maddə 2007, № 12 (I kitab), maddə 2615; 2019, № 2, maddə 206, № 5, maddə 844) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. dördüncü abzasa "57-ci maddəsinin ikinci hissəsində," sözlərindən sonra "74-cü maddəsinin "Qeyd" hissəsində," sözləri, "96-cı maddəsinin 3-cü hissəsində," sözlərindən sonra "98-ci maddəsinin 2-ci hissəsində," sözləri və "263-cü" sözlərindən əvvəl "232-ci maddəsinin 3-cü hissəsində," sözləri əlavə edilsin;

3.2. yeddinci abzasın "ç" bəndi ləğv edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 431; 2001, № 7, maddə 459; 2007, № 5, maddə 459; 2010, № 2, maddə 80; 2017, № 5, maddə 802; 2019, № 3, maddə 406; 2020, № 4, maddə 397) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı"nın V bölməsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 9-cu hissənin "Tədbirin adı" sütununda "Gənc əlillərin" sözləri "Əlilliyi olan gənclərin" sözləri ilə və "zamanı əlil olanların" sözləri "ilə əlaqədar əlilliyi müəyyən edilənlərin" sözləri ilə əvəz edilsin;

4.2. 10-cu hissənin "Tədbirin adı" sütununda "əlil" sözü "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 614 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 760; 2003, № 9, maddə 479; 2005, № 1, maddə 15; 2011, № 3, maddə 180; 2016, № 2 (II kitab), maddə 227) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. ikinci abzasdan "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 41-ci və 42-ci maddələrinin birinci hissəsində və 43-cü maddəsinin yeddinci hissəsində," sözləri və "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsində," sözləri çıxarılsın;

5.2. üçüncü abzasdan "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində, 40-cı maddəsinin birinci hissəsində və 42-ci maddəsinin üçüncü hissəsində," sözləri və "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 42-ci maddəsinin ikinci hissəsində," sözləri çıxarılsın;

5.3. dördüncü abzas ləğv edilsin.

6. "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 594; 2008, № 5, maddə 373; 2013, № 8, maddə 897; 2016, № 10, maddə 1627; 2017, № 5, maddə 770, 2018, № 2, maddə 207; 2019, № 5, maddə 847) 2.1-ci bəndində "əlil uşaqlarına" sözləri "əlilliyi olan övladlarına" sözləri ilə əvəz edilsin.

7. "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 5 iyun tarixli 595 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 357; 2001, № 7, maddə 459; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2020-ci il*

# "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.2. həmin Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın 10.40.37-ci bəndinə uyğun olaraq, təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

2.2. həmin Qaydaların 14.4-cü bəndinə uyğun olaraq, aviasiya təhlükəsizliyinin təmini sahəsində personalın hazırlığı qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

2.3. həmin Qaydaların 17.5-1-ci bəndinə uyğun olaraq, aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

2.4. həmin Qaydaların 3.12.22-1-ci yarımbəndinə uyğun olaraq, mülki aviasiya sahəsində yüklərin və poçt göndərişlərinin aviasiya təhlükəsizliyini təmin etmək məqsədilə qeydiyyatdan keçmiş yük agentlərinə və məlum yükgöndərənlərə sertifikat və fərdi kod nömrəsinin verilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. həmin Qaydaların 7.1-3-cü bəndinə uyğun olaraq, hava limanının nəzarət edilməyən zonalarının təhlükəsizliyinin təmin edilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. həmin Qaydaların 10.40.2-ci yarımbəndinə uyğun olaraq, mülki hava gəmiləri ilə daşınan yük və poçt göndərişlərinin təhlükəsizliyinin təmin edilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

3.1. aşağıdakı normativ-hüquqi aktları iki ay müddətində təsdiq etsin:

3.1.1. "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın 10.30.2-1-ci yarımbəndinə uyğun olaraq, sərnişinlərdən hava gəmisində daşınması qadağan edilmiş maddə və (və ya) predmetlərin götürülməsi, saxlanılması, geri qaytarılması və məhv edilməsi qaydasını;

3.1.2. həmin Qaydaların 14-6.5.2-ci yarımbəndinə uyğun olaraq, mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması metodikasını;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Aidiyyəti dövlət orqanları (qurumları) bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2020-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Gənc Liderlər Proqramının iştirakçıları Baş Nazirin müavini ilə görüşüblər



Gənclər və İdman Nazirliyinin və Heydər Əliyev Mərkəzinin 2019-cu ildə icrasına birgə start verdiyi "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı davam edir.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, proqramın məqsədi gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi ilə onlarda liderlik keyfiyyətlərinin inkişafına şərait yaratmaqdır.

Cari ilin aprelindən start verilmiş proqramda iştirak üçün 350-dən çox gənc müraciət edib. İlkin seçimlərdən sonra 171 gənclə onlayn formada müsahibə aparılıb və nəticədə 115 nəfər iştirakçı kimi seçilib. İştirakçıların seçimi zamanı onların ictimai fəallığı, təşkilatçılıq bacarıqları, dünyagörüşləri, hadisələrə baxışları, ünsiyyət və əlaqə qurmaq bacarıqları, komandada işləmək təcrübəsi kimi meyarlara üstünlük verilib. Proqram çərçivəsində avqust-oktyabr aylarında rəsmi şəxslərlə onlayn görüş, vebinar və təlimlərin keçirilməsi nəzərdə tutulub.

İlk görüş "Azərbaycançılıq məfkurəsi: tarix və gələcəyə baxış" mövzusunda Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov ilə olub. Görüşdə Ümummilli Lider Heydər Əliyevin misilsiz fəaliyyəti, Azərbaycanın regionda rolu, tarixi aspektlər, ölkəmizin gələcəyi, azərbaycançılıq məfkurəsi və digər istiqamətlər üzrə ətraflı məlumat verilib. Həmçinin Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi üçün gənclərin üzərinə düşən vəzifələr barədə lazımi tövsiyələr onların diqqətinə çatdırılıb.

Çıxışlardan sonra gənclərin sualları cavablandırılıb.

Proqram Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən həyata keçirilir.

# *Hikmət HACIYEV:* "Ermənistan XİN-in Şərqi Aralıq dənizi ilə bağlı açıqlaması riyakarlığın son həddidir"



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan Xarici İşlər Nazirliyinin Türkiyəyə qarşı ittihamlarla çıxış etməsi ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

**- Ermənistan Xarici İşlər Nazirliyi Şərqi Aralıq dənizi ilə bağlı açıqlama verərək Türkiyəyə qarşı ittihamlarla çıxış edib. Bu barədə şərhinizi öyrənmək istərdik.**

- Ermənistanın bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid törədən təcavüzkar siyasətinin nəticələrini aradan qaldırmaq əvəzinə, bu kimi cəfəng açıqlamalarla çıxış etməsi bir daha rəsmi Yerevanın əsl niyyətinin öz işğalçı siyasətini gizlətmək və digər ölkələrə qarşı yalan və saxta ittihamlar irəli sürmək olduğunu nümayiş etdirir.

Türkiyəyə qarşı ərazi iddialarını dövlət gerbində əks etdirən, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ilə yaxındır ki, hərbi işğal altında saxlayan Ermənistanın bu açıqlaması həm gülüncdür, həm də riyakarlığın son həddi və özünə aid olmayan məsələlərə müdaxilə cəhdidir. Ermənistanın Şərqi Aralıq dənizindəki vəziyyətdən qətiyyən xəbəri yoxdur və onun bəyanatının yeganə səbəbi mövzunun Türkiyəyə aid olmasıdır.

Ermənistan öz yerini bilməli və əndazəsini aşmamalıdır. Ermənistan rəhbərliyi başa düşməlidir ki, diplomatiya ciddi bir sahədir və burada boğazdan yuxarı, məsuliyyətsiz bəyanatlara yer yoxdur. Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən çox düzgün qeyd olunmuşdur ki, Ermənistan Sevan adlandırdığı, amma əsl tarixi adı Göyçə olan gölü Aralıq dənizi ilə qarışıq salmamalıdır.

Ermənistan rəsmilərinin bu günlərdə Sevr müqaviləsi ilə bağlı verdikləri bəyanatlar bir daha göstərir ki, bu ölkə keçmişin girovu olmaqdan qurtulmaq, əsassız nifrəti kənara qoymaq və qonşuları ilə sülh şəraitində yaşamağı öyrənmək iqtidarında deyil.

Qardaş Türkiyə beynəlxalq hüququn norma və prinsiplərini və öz milli maraqlarını rəhbər tutaraq Şərqi Aralıq dənizində fəaliyyətini həyata keçirir. "Oruc Rəis" seysmik gəmisinin də təyinat məntəqəsinə yan alması qanunauyğun xarakter daşıyır. Biz Türkiyənin mövqeyini birmənalı dəstəkləyirik. Türkiyə beynəlxalq hüquqa uyğun olaraq bölgədə öz haqqını, maraqlarını və mənfəətini qoruyur.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur.

Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatlar zamanı qardaş Türkiyənin Azərbaycana verdiyi qəti dəstəyi, ölkəmizdə keçirilmiş birgə hərbi təlimləri, Türkiyənin Müdafiə naziri başda olmaqla, ordu rəhbərliyinin ölkəmizə səfərini yüksək qiymətləndiririk.

**- Azərbaycanın region dövlətləri ilə əlaqələrindən danışarkən Azərbaycan-Gürcüstan münasibətləri barədə fikirlərinizi bilmək istərdik.**

- Azərbaycan ilə Gürcüstan arasında dostluq və strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Əlaqələrimiz mehriban qonşuluğun ən uğurlu modellərindən biridir və digər ölkələr üçün nümunə ola bilər. Hər iki ölkə ərazi bütövlüyünün pozulmasından əziyyət çəkir. Ölkələrimiz bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir.

Azərbaycan və Gürcüstan nəhəng enerji və nəqliyyat layihələrini birgə səylərlə uğurla icra ediblər. Biz növbəti uğur hekayəsi olan "Cənub qaz dəhlizi"nin ilin sonuna qədər istismara veriləcəyini gözləyirik. Azərbaycan şirkətləri Gürcüstanda böyük vergiödəyiciləridir. Şirkətlərimizin iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün bir sıra yeni təklifləri var.

Azərbaycan hakimiyyəti və Gürcüstanın hazırkı iqtidarı arasında etimada əsaslanan konstruktiv dialoq mövcuddur. Biz istənilən məsələni açıq surətdə və dostcasına müzakirə edirik. Bu əməkdaşlıq qarşılıqlı faydalı xarakter daşıyaraq xalqlarımızın və dövlətlərimizin maraqlarına xidmət edir. Bu günlərdə Ermənistana göndərilən silahların rəsmi Tbilisi tərəfindən ölkə ərazisindən tranzit kimi istifadə edilərək keçirilməsinə imkan verilməməsini yüksək dəyərləndiririk. Həm Azərbaycan, həm də Gürcüstan hakimiyyəti münasibətlərin bundan sonra daha da dərinləşdirilməsi əzmindədir.

# Milli Məclisin Elm və təhsil komitəsi ilə Təhsil Nazirliyinin videoformatda konfransı keçirilib

Avqustun 17-də Milli Məclisin Elm və təhsil komitəsi ilə Təhsil Nazirliyinin videoformatda konfransı keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, konfransda dünyanı bürümüş COVID-19 pandemiyası şəraitində növbəti tədris ilində təhsil müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlı məsələlər müzakirə olunub. Bildirilib ki, yeni tədris ilində təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı Azərbaycan Respublikası Təhsil İnstitutunun təklif və tövsiyələrini əks etdirən elmi araşdırmanın nəticələri ictimaiyyətə təqdim edilib.

Onlayn konfransda çıxış edən Təhsil naziri Emin Əmrullayev təhsil sahəsində koronavirus pandemiyası ilə əlaqədar yaranan problemlərdən çıxış yollarının müzakirəsinə həsr olunmuş bu tədbirə və məsələyə həssas yanaşmaya görə Milli Məclis rəhbərliyinə, deputatlara təşəkkürünü bildirib.

Nazir vurğulayıb ki, pandemiya dövründə ölkə rəhbərliyinin diqqət yetirdiyi əsas məsələ, ilk növbədə, insanların sağlamlığının qorunmasıdır.




Emin Əmrullayev nazirlik tərəfindən normal şəkildə təhsilə davam ediləcəyi təqdirdə COVID-19-a yoluxma sürəti ilə bağlı araşdırmaların nəticələri barədə məlumat verib. O, təhsilin adi qaydada davam edərsə insanların hərəkətlilik səviyyəsinin nəzərə alınmasının vacibliyini vurğulayıb, bunun müəyyən risklər yarada biləcəyini qeyd edib.

Nazir növbəti tədris ili üçün təhsil müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlı Təhsil İnstitutunun verdiyi təklifləri səsləndirib. Qeyd edilib ki, "yaşıl", "sarı", "narıncı" və "qırmızı" zonalarda təhsilin bütün davamiyyət formaları barədə araşdırmalar aparılıb və təkliflər irəli sürülüb.

Bildirilib ki, Təhsil İnstitutunun verdiyi tövsiyələrdə tədrisin məsafədən təşkili, qarışıq (onlayn və sinif otağında) modellərinin tətbiqi yolları nəzərdə tutulur. Yoluxma risklərinin minimuma endirilməsi üçün ümumi məktəb günlərinin sayının, dərs saatının miqdarının, sinif otaqlarının azaldılması kimi tədbirlər nəzərdə tutulur. Tənəffüs fasilələrinin uzadılaraq şagirdlərin açıq havada çox vaxt keçirməsi məqsədəuyğun hesab edilir.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev çıxışında indiki məqamda qarışıq təhsil modelinin (onlayn və sinif otağında) daha məqsədəuyğun olması ehtimalını dilə gətirib. O, martın 11-dən ölkənin iki telekanalında əksər fənlər üzrə fəaliyyətə başlamış dərslərin yayımının şagird və tələbələr üçün çox faydalı olduğunu və bunun davam etdirilməsinin zəruriliyini qeyd edib. Bəxtiyar Əliyev həmçinin ümumi təhsil, məktəbəqədər təhsil, ali və orta ixtisas təhsili, peşə təhsili, məktəbəhazırlıq prosesinin davam etdirilməsi ilə bağlı fikirlərini açıqlayıb. Qeyd olunub ki, bəzi ümumi, ali və orta ixtisas təhsilinin müəyyən pillələrində distant təhsil forması mövcud proqramlara uyğun davam etdirilə bilər.

Onlayn konfransda Milli Məclisin deputatları İsa Həbibbəyli, Anar İsgəndərov, Musa Qasımlı, Etibar Əliyev, Aqiyə Naxçıvanlı, Müşfiq Məmmədli, Şahin Seyidzadə, Kamilə Əliyeva, Ceyhun Məmmədov, Pərvin Kərimzadə, Tamam Cəfərova, Fatma Yıldırım, Ülviyyə Ağayeva Təhsil İnstitutunun verdiyi təkliflərlə bağlı fikirlərini bildiriblər.

Onlayn tədbirin sonunda Təhsil naziri Emin Əmrullayev və komitə sədri Bəxtiyar Əliyev deputatları maraqlandıran bəzi məqamlara aydınlıq gətiriblər.

# *XİN:* Ermənistanın Gəncəyə hərbi zərbə endirməklə bağlı təhdidi onun terrorçu mahiyyətini ifşa edir

"Ermənistan "yeni ərazilər üçün yeni müharibə" məqsədi güdən təcavüzkar hərbi strategiyasını həyata keçirmək məqsədilə iyulun 12-16-da Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan mövqelərinə təşkil etdiyi hücum cəhdi iflasa uğradıqdan sonra bu ölkənin hərbi-siyasi rəhbərliyi son hərbi avantüranın uğursuzluğunu digər müstəvilərdə kompensasiya etmək, diqqəti Ermənistanda getdikcə kəskinləşən sosial-iqtisadi və siyasi böhrandan yayındırmaq məqsədilə təhrikedici addımlarını və təxribat xarakterli bəyanatlarını davam etdirməkdədir. Bütün bunlar Ermənistanın səbəb olduğu münaqişənin nəticələrini aradan qaldırmaq deyil, qanunsuz güc tətbiqi ilə yaratdığı işğal vəziyyətini möhkəmləndirmək məqsədini güddüyünün bariz təzahürüdür".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistanın Gəncəyə hərbi zərbə endirməklə təhdid etmək cəhdi ilə bağlı şərhində yer alıb.

Bildirilib ki, Ermənistanın hərbi-siyasi dairələrinin Azərbaycanın iri yaşayış məntəqələrinin və Mingəçevir SES kimi strateji əhəmiyyətli mülki obyektlərinin "hərbi hədəf" kimi nəzərdən keçirildiyinə dair bəyanatlarının ardınca Ermənistan tərəfi ölkəmizin işğal edilmiş ərazilərində yaratdığı qanunsuz rejimin qondarma "başçısı" vasitəsilə Azərbaycanın Gəncə şəhərinə hərbi zərbə endirməklə təhdid etməyə cəhd göstərir.

Bütün bunlar təcavüzkar siyasətindən əl çəkməyən Ermənistanın terrorçu mahiyyətini ifşa edir. Özünün hərbi təxribatlarının Azərbaycan Ordusunun hərbi qüdrəti və yüksək peşəkarlığı sayəsində qətiyyətlə dəf edilməsi ilə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə aciz vəziyyətə düşən Ermənistan növbəti dəfə ənənəvi metoduna əl ataraq, mülki obyektləri və əhalini hədəfə almaqla, terror təşkilatlarına xas şəkildə mülki əhali arasında qorxu yaratmaq məqsədi güdür.

Ermənistan tərəfi Yaxın Şərq ölkələrində yaşanan humanitar məşəqqətlərdən özünün mənfur siyasi məqsədləri üçün sui-istifadə etməkdən növbəti dəfə çəkinməyərək, Livanın paytaxtı Beyrut şəhərində baş vermiş dəhşətli partlayışdan sonra bu ölkədən olan etnik ermənilərin qanunsuz olaraq Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirmək planını bəyan edib.

Ermənistan tərəfi Azərbaycanın işğal edilmiş ərazilərində yaratdığı qanunsuz rejim vasitəsilə bəzi qondarma "rəsmi qurumları" Şuşa şəhərinə köçürmək niyyətində olduğunu bildirib.

Özünün mədəni, tarixi və mənəvi xüsusiyyətləri baxımından Azərbaycan xalqı üçün müstəsna əhəmiyyətə malik Şuşa şəhəri ilə bağlı bu mənfur niyyət Azərbaycanın işğal edilmiş ərazilərində aparılmış etnik təmizləmə siyasətinin möhkəmlənməsinə yönəlmiş növbəti cəhddir.

Öz doğma yaşayış yerlərindən qovulmuş Azərbaycan əhalisinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, o cümlədən Şuşa şəhəri daxil olmaqla işğal edilmiş bütün ərazilərimizdəki daimi yaşayış yerlərinə təhlükəsiz və ləyaqətli geri qayıtmaq hüququnun bərpa edilməsi Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində qırmızı xətdir. Bu xəttin keçilməsi kimi qiymətləndirdiyimiz Ermənistanın sözügedən niyyətindən birdəfəlik imtina edilməməsi ciddi fəsadlar törətmək təhlükəsi yaradır.

Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində həyata keçirdiyi qanunsuz iqtisadi və digər fəaliyyətlər kontekstində Sərsəng su anbarının infrastrukturunu dəyişdirmək istiqamətində addımlar atır. Ermənistanın Sərsəng su anbarı ilə bağlı addımları Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının, dövlət və xüsusi mülkiyyət hüquqlarının növbəti pozuntusu olmaqla qanunsuz mahiyyət daşıyır. Azərbaycan ərazilərini işğal etdikdən bəri Ermənistan Sərsəng su anbarından ekoloji terror aləti kimi istifadə etməklə, işğal altındakı ərazilərimizə yaxın yerlərdə məskunlaşmış Azərbaycan vətəndaşlarını su resurslarından məhrum edir, nəticədə həmin ərazilərdə ekoloji vəziyyətə ciddi ziyan vurulub, biomüxtəlifliyə xələl gətirilib. Qeyd edilənlər birmənalı olaraq Avropa Şurası Parlament Assambleyasının 2085 (2016) saylı qətnaməsində təsbit edilib. Su anbarının infrastrukturunun dəyişdirilməsi istiqamətində cəhdləri Ermənistanın qeyd edilən ekoloji terror siyasətinin növbəti addımı kimi nəzərdən keçirilməlidir.

Bundan əlavə, işğal edilmiş ərazilərdə həyata keçirilən bütün infrastruktur dəyişiklikləri, o cümlədən Ermənistanla Azərbaycanın işğal edilmiş ərazilərini birləşdirən yolların çəkilişi kimi, Sərsəng su anbarı ilə əlaqəli addımlar da təcavüzkar ölkənin həyata keçirdiyi qanunsuz məskunlaşdırma siyasətinə xidmət edir, işğal altındakı ərazilərdə məskunlaşdırılmaq üçün daha çox etnik erməninin cəlb edilməsi məqsədini güdür.

Ermənistanın özünün təhrikedici qanunsuz fəaliyyətləri və təxribat məqsədli bəyanatları ilə beynəlxalq ictimaiyyətin, ilk növbədə, Azərbaycan dövlətinin və ictimaiyyətinin səbrini sınağa çəkməyə son qoymalıdır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi birmənalı olaraq bildirir ki, Azərbaycan özünün beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi, Konstitusiya quruluşunun müdafiəsi, vətəndaşlarının təhlükəsizliyinin və hüquq və azadlıqlarının təmin olunması üçün Konstitusiyanın və beynəlxalq hüququn ona verdiyi bütün imkanlardan istifadə etməklə bütün zəruri addımları atmaq əzmindədir və qətiyyətindədir.

Xarici İşlər Nazirliyi Ermənistanın bölgədə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizama salınması imkanlarını tamamilə məhv etməyə yönəlmiş bu təhrikedici cəhdlərlə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərini məlumatlandırıb. Ermənistanın qeyd edilən davranışına adekvat qiymətin verilməsi, onun, bütövlükdə, region üçün ciddi təhlükəli fəsadlara gətirib çıxara biləcək addımlardan çəkindirilməsi və münaqişənin dinc yolla nizama salınması məqsədilə BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsi (822 (1993), 853 (1993), 874 (1993), 884 (1993)) və ATƏT-in qərarları əsasında siyasi-hüquqi çərçivəsi müəyyən edilmiş danışıqlar prosesinə qaytarılması vacibdir.

Xarici İşlər Nazirliyi bundan sonra da Ermənistanın qanunsuz fəaliyyətinin dayandırılması, onun nəticələrinin aradan qaldırılması istiqamətində bütün siyasi-diplomatik mexanizmlərdən istifadə etməklə zəruri addımları atacaqdır.

# Cəbhəboyu zonadakı hərbi hissələrdə birgə tədbirlər keçirilir

Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında imzalanan 2020-ci il üçün birgə tədbirlər planına əsasən, Azərbaycan Ordusunda həyata keçirilən fəaliyyətlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev və Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev cəbhəboyu zonada yerləşən hərbi hissələrdə hərbi qulluqçular, o cümlədən bilavasitə müdafiənin ön xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşüblər.

Əvvəlcə Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.

Görüşlərdə döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətin daha da yaxşılaşdırılması, hərbi kollektivlərdə münasibətlərin qanunvericilikdə nəzərdə tutulan tələblər və nizamnamələr çərçivəsində qurulması, şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, o cümlədən digər məsələlər barədə söhbətlər aparılıb.

Tədbirlərdə Silahlı Qüvvələrin Ali Baş Komandanının ordu qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətin diqqətinə çatdırılıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti, qayğısı və birbaşa rəhbərliyi nəticəsində Azərbaycan Ordusunun inkişafı və ölkənin hərbi qüdrətinin artırılması sahəsində əldə olunan nailiyyətlərdən danışılıb.

Hərbi qulluqçularla söhbətlər zamanı müxtəlif mövzularda təkliflər səsləndirilib və onları maraqlandıran bir sıra suallar cavablandırılıb.

Birgə fəaliyyət planına uyğun olaraq Respublika Hərbi Prokurorluğu və Qarnizon Hərbi Prokurorluğu nümayəndələrinin iştirakı ilə şəxsi heyətlə keçirilən hüquqi maarifləndirmə tədbirləri davam edir.

# Rusiyanın hərbi gəmiləri Bakıya gəlib

Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsində iştirak etmək üçün Rusiya Hərbi Dəniz Donanmasının (HDD) Xəzər flotiliyasının "Maxaçkala" və "Astraxan" kiçik artilleriya, "SB-738" xilasedici yedək gəmiləri avqustun 17-də Bakıya gəlib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov Rusiya HDD-nin Xəzər flotiliyasının nümayəndəsi 1-ci dərəcəli kapitan Sergey Yekimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Tərəflər "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsinin təşkilinə dair fikir mübadiləsi aparıblar.




# Azərbaycan hərbçiləri Moskvada "Sərhədsiz dostluq" festivalında iştirak edirlər

"Beynəlxalq Ordu Oyunları - 2020" çərçivəsində Moskvada "Sərhədsiz dostluq" festivalı keçirilir. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, festivalda Azərbaycanı Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı təmsil edir.

Festivalda hərbçilər təmsil olunduqları ölkənin və dünya xalqlarının mahnı və marşlarını, rəqslərini ifa edirlər. Hərbçilərimizin ifasında təqdim edilən milli hərbi marşlar, o cümlədən Azərbaycan xalq çalğı alətlərinin sədaları altında milli geyimlərdə rəqslər yerli və xarici tamaşaçıların rəğbətini qazanıb.

Eyni zamanda festival çərçivəsində Azərbaycan Mədəniyyət Günləri keçiriləcək. Bu tədbirdə xalqımızın qədim köklərə bağlı mədəniyyəti, folkloru, tarixi özündə əks etdirən müxtəlif stendlər, eksponatlar, suvenirlər, xalçalar, kitablar, Azərbaycanda istehsal edilən ərzaq və digər məhsullar təqdim olunacaq. 50-yədək ölkədən mindən artıq musiqiçi, vokalist və rəqqasın qatıldığı festival sentyabrın 5-dək davam edəcək.

# Biz birlikdə güclüyük!



# İlham Əliyev çevik və şəffaf iqtisadi idarəetmə modeli yaradır

## Ən islahatçı Prezident iqtisadiyyatın liberallaşdırılması istiqamətində atdığı addımlarla Azərbaycanın gələcək yüksəlişi üçün güclü baza formalaşdırır

*Əvvəli 1-ci səh.*

Buna görə də, ölkədə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığının artırılması, onların gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, idarəçilik modelinin təkmilləşdirilməsi və nəticədə dövlət büdcəsindən daha səmərəli istifadə olunmasını təmin etmək zərurəti yaranıb. Bu da, əlbəttə ki, müasir çağırışlar, yeni trendlər fonunda iqtisadiyyatın liberallaşdırılması nəticəsində reallaşa bilər.

Dövlət başçısı avqustun 6-da keçirdiyi müşavirədə bu məsələyə toxunaraq vurğuladı ki, son vaxtlar iqtisadiyyatın liberallaşdırılması istiqamətində aparılan müzakirələr artıq ciddi addımların atılmasını, həmçinin özəlləşdirmə sahəsində daha geniş islahatların reallaşdırılmasını şərtləndirir. Ona görə də bu istiqamətdə mühüm addımlar atılmalıdır.

Avqustun 7-də isə Prezident struktur islahatları çərçivəsində daha bir mühüm əhəmiyyət kəsb edən fərman imzaladı. Bu sənədə əsasən, "Azərbaycan İnvestisiya Holdinqi" (AİH) yaradıldı və təşkilatın Nizamnaməsi təsdiq edildi. Fərmanda da qeyd edilirdi ki, son illər ölkədə sosial-iqtisadi infrastruktur inkişaf edib, yeni strateji mərhələnin çağırışlarına adekvat formada qurulan idarəetmənin çevikliyi artıb. Ötən müddətdə struktur islahatlarının əhəmiyyətini nəzərə alaraq dövlət xidmətləri və məhsul istehsalı sferasının da qabaqcıl prinsiplər əsasında idarə olunmasına xüsusi önəm verilib. Bu istiqamətdə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, onların gəlir və xərclərinə nəzarətin gücləndirilməsi üçün bir sıra işlər görülüb, paylarının nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin idarə olunmasının təkmilləşdirilməsi məqsədilə mühüm islahatlar həyata keçirilib.

Müasir dövrdə yalnız azad bazar münasibətlərinin hərtərəfli inkişafına, dayanıqlı özəl mülkiyyətin genişlənməsinə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafı sürətləndirmək mümkündür. Buna görə də dövlətə məxsus müəssisələrin idarə olunması sisteminin təkmilləşdirilməsi, fəaliyyətinin səmərəliliyinin və şəffaflığının artırılması, xərclərini və risklərini optimallaşdırmaq yolu ilə onların tam sağlamlaşdırılması istiqamətində struktur islahatlarının dərinləşdirilməsi tələb olunur.

İqtisadçılar hesab edirlər ki, Prezident İlham Əliyevin bu qərarı postpandemiya dövrü üçün böyük əhəmiyyət daşıyır. Çünki indi əsas məqamlardan biri iqtisadi gücü bərpa etmək və inkişafa nail olmaqdır. Bunun üçün də iqtisadiyyatın liberallaşdırılması vacibdir.

Bu sistemlə dövlət müəssisələrinin maliyyə sağlamlığı və dayanıqlılığını yaxşılaşdırmaq, maliyyə resurslarının, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında idarə etmək mümkün olacaq. Həmçinin vahid idarəetmə modeli dövlət şirkətlərinin maliyyə durumlarının yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsini özündə ehtiva edir. Sözügedən islahatlar azad bazar münasibətlərinin hərtərəfli inkişafına, özəl mülkiyyətin genişlənməsinə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafı sürətləndirməyə hesablanıb.

### Struktur islahatlarının növbəti uğuru

Azərbaycanda iqtisadiyyatın liberallaşdırılması, ilk növbədə, bu sahədə səmərəliliyin artırılmasına səbəb olacaq. Yəni dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyi aydın, ölçülə bilən və şəffaf səmərəlilik göstəriciləri vasitəsilə müəyyən olunacaq. Azərbaycan İnvestisiya Holdinqi dövlət müəssisələrinin korporativ idarəetmə orqanlarında iştirak etməklə onların ölkəmizin iqtisadi qüdrətinin daha da artmasına töhfə verməsini təmin edəcək.

Dövlət müəssisələrinin əldə etdiyi mənfəət iqtisadiyyatın inkişafına yönəldiləcək, fəaliyyət göstərdikləri sahələrə özəl investisiyaların cəlb edilməsi sürətlənəcək, bu məqsədlə dövlət-özəl tərəfdaşlığının inkişafı stimullaşdırılacaq. Həmçinin özəl sektorla dövlət müəssisələri arasında rəqabətin ədalətli və bərabər şərtlərlə aparılması təmin olunacaq və bu qurumlar səmərəli fəaliyyət göstərməklə milli inkişaf hədəflərinə nail olunmasına xidmət edəcək. Eləcə də, iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi məqsədilə innovasiyalar və rəqəmsallaşma daha geniş şəkildə tətbiq və təşviq olunacaq.

Yeni holdinqin yaradılmasında məqsəd ölkə iqtisadiyyatında böyük bir hissə təşkil edən dövlət şirkətlərinin idarə olunmasıdır. Holdinqin yaradılması, idarəetmədə effektliyin artırılması, qeyri-neft sahələrinin effektiv idarə olunması həmin sahələrin inkişafına təkan verəcək, eləcə də rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması məqsədlərinə xidmət edəcək. Bununla da daha vacib layihələr həyata keçiriləcək və bir o qədər də əhəmiyyət daşımayan işlərə əlavə vəsaitlər və izafi xərclər sərf olunmayacaq.

Göründüyü kimi, Prezident İlham Əliyev qlobal böhran şəraitində həyata keçirdiyi struktur islahatları ilə iqtisadi və korporativ idarəetməni daha da modernləşdirir. Dövlət başçısı çevik, şəffaf, obyektiv informasiya sisteminə əsaslanan və ayrı-ayrı strukturları bir tam halında sinxronlaşdırılmağı bacaran yeni idarəetmə modeli yaradır.

Bu da onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin möhkəm təməl üzərində formalaşdırdığı yeni iqtisadi konsepsiya böhran şəraitində belə sosial-iqtisadi və struktur islahatlarının həyata keçirilməsinə güclü təkan verir. Qlobal böhran şəraitində İnvestisiya Holdinqinin yaradılması Prezident İlham Əliyevin struktur islahatlarının məntiqi davamıdır.

Onu da xatırladaq ki, avqustun 12-də Prezidentin sərəncamı ilə holdinqin Müşahidə Şurasının tərkibi təsdiq edilib və avqustun 14-də Müşahidə Şurasının sədri, Baş Nazir Əli Əsədovun rəhbərliyi ilə ilk iclas keçirilib. Videomüşavirədə dövlət başçısının fərmanından irəli gələn tapşırıqlar - korporativ idarəetmənin təşkili, səmərəli və şəffaf fəaliyyət, maliyyə sağlamlığının gücləndirilməsi, dayanıqlı inkişafın təmini və bəzi təşkilati məsələlər müzakirə olunub. Verilən tapşırıqların vaxtında və tam həcmdə icra olunması əsas tələb kimi qarşıya qoyulub.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Azərbaycanda normal həyata keçid sürətlənib

## Koronavirusun lokallaşdırılması istiqamətində görülən qabaqlayıcı tədbirlər müsbət nəticəsini verir

*Əvvəli 1-ci səh.*

Azərbaycan da bütün imkanlarını COVID-19-a qarşı səfərbər edib. Dövlət sanitar-epidemioloji vəziyyətin nəzarət altında saxlanılması üçün tədbirləri davam etdirir. Məhz zamanında bu istiqamətdə aparılan sistemli işlər ölkəmizi pandemiyanın səbəb olacağı labüd təhlükələrdən müəyyən qədər sığortalayıb.

### Koronavirusa qarşı immunitet səviyyəsi öyrəniləcək

Ölkəmizin səhiyyə sisteminin dərhal pandemiya şəraitinə uyğunlaşdırılması, tibbi vəsaitlərlə təchizatın yüksək səviyyədə olması, modul tipli xəstəxanaların qısa zamanda istifadəyə verilməsi, ən müasir laboratoriyaların quraşdırılması COVID-19-la uğurlu mübarizə aparmağa imkan yaratdı. 100 minə yaxın tibb işçilərimizin virusa yoluxan hər bir vətəndaşın sağaldılması uğrunda apardığı mücadilə müsbət bəhrəsini verdi. Müalicələrin yüksəkkeyfiyyətli olması, qabaqcıl ölkələrdə virusa qarşı keçirilən tədbirlərin ölkəmizdə də tətbiq olunması sayəsində hazırda koronavirusa yoluxan 31 mindən çox vətəndaşımız müalicə olunaraq sağalıb.

Koronavirusun yayılmasının qarşısını almaqda kömək edən ən effektiv vasitələrdən biri virusun erkən aşkarlanması üçün aparılan testlərdir. Buna görə də ölkədə bu məqsədlə keçirilən testlərin sayı artırılır və hazırda bu say 8 yüz mindən çoxdur.

Bu həftədən etibarən isə respublikamızda koronavirus pandemiyası ilə əlaqədar seroloji testlərin keçirilməsinə başlanılacaq. Bu testlər təsadüfi seçilmiş əhali qrupları arasında könüllülük prinsipi ilə aparılacaq. TƏBİB Mikrobiologiya İşçi qrupunun rəhbəri Qumral Ələkbərova bununla bağlı bildirib ki, həmin şəxslərə zəng etdikdən sonra razılaşdıqları halda qeydiyyatda olduqları poliklinikada hazırlanmış tibbi heyət onların evinə yaxınlaşıb qan nümunələri götürəcək. Layihənin məqsədi əhali arasında COVID-19 xəstəliyinin keçirilməsi haqqında təsəvvürlərin əldə olunması, xəstəliyi keçirmiş şəxslərdə yaranmış immunitet səviyyəsinin öyrənilməsidir. Layihəyə Bakı şəhərindən başlanılacaq və 1500-ə yaxın şəxs tədqiqata cəlb olunacaq. Daha sonra bunun Sumqayıt və Gəncə şəhərlərində həyata keçirilməsi nəzərdə tutulur.

### Ölkə üzrə mövcud epidemioloji vəziyyət qiymətləndirilir

Eyni zamanda ölkədə mövcud epidemioloji vəziyyətin qiymətləndirilməsi, dünyada yoluxma tendensiyasının ciddi şəkildə təhlil edilərək qərarlar qəbul edilməsi virusa qarşı mübarizədə düzgün strategiyanın tətbiqini şərtləndirdi. Sanitar-epidemioloji vəziyyətə vaxtlı-vaxtında tətbiq olunan sərt karantin rejimi infeksiyanı nəzarətdə saxlamağa imkan yaratdı.

Qeyd etmək yerinə düşər ki, ölkəmizdə son zamanlar gündəlik yoluxma halında ardıcıl olaraq kəskin azalma müşahidə olunur. Məsələn, iyul ayının əvvəlində gündəlik 500-dən çox yoluxma qeydə alınırdısa, ölkədə son zamanlar virusa yoluxan insanların sayı 100, hətta ondan da aşağı səviyyədədir.

Ona görə də sanitar-epidemioloji vəziyyət təhlil edilərək və koronavirusa yoluxma sayında müsbət dinamika nəzərə alınaraq sərtləşdirilmiş karantin rejimində mərhələli şəkildə yumşalmalar tətbiq olunur. Belə ki, avqustun 5-dən SMS icazə sistemi ləğv edildi, çimərliklər açıldı. Avqustun 10-dan iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə mindi. Müvafiq qərara əsasən, sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində qeyd olunan tarixdən etibarən bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verildi. İri ticarət mərkəzləri və "Mall"lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açıldı, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilən məhdudiyyətlər aradan götürüldü.

### Növbəti iş sahələri fəaliyyətə başlayır

Bu gündən isə Nazirlər Kabineti yanında Operativ Qərargahın yuxarıda adları sadalanan ərazilərdə elan edilmiş sərtləşdirilmiş karantin rejimində dəyişiklik olunması barədə qərarına əsasən, ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verilir.

Həmin yerlərdə ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanlarda müştərilərə açıq hava sahəsində yerində xidmət saat 09:00-dan 22:00-dək həyata keçiriləcək. Qəlyan avadanlıqlarından istifadə və hər bir masa arxasında 6 nəfərdən artıq toplaşmaq qadağası qüvvədə qalır.

İnsanların sıx toplaşmasının xəstəliyin yayılma intensivliyinə birbaşa təsirini nəzərə alaraq ictimai iaşə müəssisələrində bir sıra qaydalara əməl olunmalıdır. Belə ki, hər bir şəxs ictimai iaşə müəssisələrinə daxil olarkən pandemiya şəraitinin tələblərinə mütləq əməl etməlidir. İctimai iaşə müəssisələrinə müştəri qəbulu 2 dəfə azaldılmalı və adambaşına müəyyən edilən sahə 2 qat artırılmalı, ictimai iaşə müəssisələrinin qida qəbulu zallarında, otaqlarda, habelə onların açıq hava sahələrində masalararası məsafə 2 metr, masalar arxasındakı oturacaqlar arasındakı məsafə isə 1 metrdən az olmamalıdır. Qaydalara əsasən, bu məkanlarda mütəmadi dezinfeksiya işləri aparılmalı, hər bir masada dezinfeksiyaedici məhlulların yerləşdirilməsi təmin olunmalıdır. Qida qəbulu zallarında, otaqlarında, habelə onların açıq hava sahələrində sərinkeşlərdən (ventilyatorlardan) istifadə olunmamalı, təmizlik-dezinfeksiya işləri iş saatı ərzində əsasən işlək sahələrdə (giriş-çıxış, kassa və s.), iş saatından sonra isə bütün sahələrdə həyata keçirilməlidir.

Dünyada koronavirusun tüğyan etdiyi bir zamanda ölkəmizdə COVID-19-a yoluxmada əldə olunan müsbət tendensiya və ardıcıl atılan yumşalma addımları sevindiricidir. Təbii ki, sadalanan irəliləyişlərə vətəndaşlarımızın qoyulan qaydalara qarşı məsuliyyətli davranışı, nizam-intizam göstərməsi də böyük təsir göstərir. Bu, bir həqiqətdir ki, görülən tədbirlərin effektivliyi həm də fərdi qaydada hər bir vətəndaşın üzərinə düşən müvafiq məsuliyyəti yerinə yetirməsindən birbaşa asılıdır.

İctimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində və digər qapalı yerlərdə maskadan istifadə edilməsi, sosial məsafə saxlanılması, şəxsi gigiyena qaydalarına riayət olunması, ümumiyyətlə, pandemiya şərtlərinə əməl edilməsi normal həyata dönüşümüzü daha da sürətləndirə bilər.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*




# İndi əsas diqqət «Cənub qaz dəhlizi»nin başa çatmasına yönəldilib

*Əvvəli 1-ci səh.*

"Şahdəniz-2"də hasilatın əldə olunmasından artıq 2 il yarımdan çox vaxt keçir və buradan çıxarılan qaz 2018-ci ilin ortalarından Türkiyəyə çatdırılır.

Azərbaycan qazının nəqli Bakı yaxınlığındakı Səngəçal terminalından başlanır. Buradan mavi yanacaq "Cənub qaz dəhlizi"nin ikinci seqmenti olan Cənubi Qafqaz Boru Kəmərinə (CQBK) vurulur. Azərbaycanın ərazisində 443, Gürcüstanda 248 kilometr məsafə boyu uzanan CQBK 2006-cı ildən "Şahdəniz-1" qazını nəql edir.

"Şahdəniz-2" qazını qəbul etmək üçün CQBK-nın mövcud gücü kifayət deyildi. Ona görə də kəmərin genişləndirilməsi layihəsi həyata keçirildi. Belə ki, artan həcmləri nəql etmək üçün Hacıqabul rayonunun Muğan qəsəbəsinin yaxınlığından başlayaraq Gürcüstan sərhədinədək kəmərə paralel olan 387 kilometrlik yeni xətt çəkildi. Eləcə də CQBK-nın Azərbaycan və Gürcüstan hissələrində bir sıra yeni yerüstü obyektlər, o cümlədən kompressor stansiyaları, təzyiqölçən və digər qurğular tikildi.

"Şahdəniz-2"də hasilatın başlanması və CQBK-nın genişləndirilməsi "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsinə imkan yaratdı. Bu tarixi hadisə 2018-ci il mayın 29-da Səngəçal terminalında baş verdi.

Növbəti ayda, iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) açılış mərasimi keçirildi.

"Cənub qaz dəhlizi"nin üçüncü seqmenti olan TANAP Azərbaycan qazını Gürcüstan-Türkiyə sərhədində CQBK-dan qəbul edir. Kəmər Türkiyə ərazisində 1850 kilometrdən çox məsafə boyu uzanır. Bu ölkənin 20 vilayətindən, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincan vilayətlərindən, 67 rayonundan və 600 kəndindən keçir. Xəttin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılır.

TANAP Türkiyə-Yunanıstan sərhədindəki Kipoi məntəqəsində TAP-a qovuşur. Bir tərəfdən CQBK-ya, digər tərəfdən TAP-a bağlandığı üçün TANAP-ı "Cənub qaz dəhlizi"nin "birləşdirici halqası", yaxud "onurğa sütunu" da adlandırırlar.

Dəhlizin TANAP-dan sonrakı 878 kilometrlik hissəsi TAP-ın payına düşür. Bu kəmərin 550 kilometri Yunanıstandan, 215 kilometri Albaniyadan, 105 kilometri Adriatik dənizinin altından keçir, sonuncu 8 kilometri İtaliya ərazisində quruda yerləşir. Hazırda TAP-ın çəkilişi yekunlaşmaqdadır və cari ilin sonunadək bu boru xəttinin TANAP-la nəql olunan mavi yanacağı qəbul edəcəyi gözlənilir. Belə ki, keçən il noyabrın 30-da TANAP-ın çəkilişi tamamlanıb və o, Avropa sərhədinə çataraq TAP-la birləşib. Bu münasibətlə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində təntənəli mərasim keçirilib.

Carı ayın 10-da "Qarabağ" yatağında quraşdırılacaq stasionar dəniz özülünün əsas hissələrindən birinin - dayaq blokunun Xəzərə yola salınmasında iştirak edən Prezident İlham Əliyev qurğu ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə bu barədə demişdir: "Əlbəttə, indi bizim əsas diqqətimiz "Cənub qaz dəhlizi"nin başa çatmasına yönəldilib. Bu layihə də uğurla icra edilir. Bunun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Beləliklə, hesab edirəm ki, bir neçə aydan sonra Azərbaycan dövlətinin təşəbbüsü ilə və genişmiqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam başa çatacaqdır və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq. Beləliklə, "Cənub qaz dəhlizi" tam istismara veriləcək. Bu, bizim üçün çox önəmli və hesab edirəm ki, tarixi hadisədir."

"Cənub qaz dəhlizi" olmasaydı, heç bir xarici investor Azərbaycandakı yataqlara sərmayə yatırmaq istəməzdi. Gələcəkdə bu dəhlizlə təkcə "Şahdəniz"dən deyil, işlənməsi müxtəlif mərhələlərdə olan digər yataqlardan alınan qaz da nəql ediləcək.

İxracın coğrafiyası da genişlənəcək. Bu barədə isə Prezident belə demişdir: "Məsələn, "Abşeron" qaz-kondensat yatağından çıxarılacaq qazın ixracı üçün yol olmalıdır, həmçinin "Qarabağ" yatağından və digər yataqlardan çıxarılacaq təbii qazın da. Ona görə "Cənub qaz dəhlizi"nin əhəmiyyəti təkcə "Şahdəniz" layihəsi ilə məhdudlaşmır. Bu layihə icra olunmadan bizim enerji siyasətimiz yarımçıq qala bilərdi. Amma bu gün bizim enerji siyasətimiz ölkəmizin maraqlarını tam təmin edir... "Şahdəniz" qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılacaq. Əgər Albaniyada qaz şəbəkəsi yaranarsa, Albaniya da bizim təbii tərəfdaşımız olacaqdır, biz oraya da qaz ixrac edə bilərik. Digər qonşu ölkələrə - Balkan bölgəsində yerləşən ölkələrə Azərbaycan qazının verilməsi mümkündür".

Azərbaycanın təşəbbüsü və lideliyi ilə həyata keçirilən, ölkəmizin yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatı çərçivəsində inkişaf edən "Cənub qaz dəhlizi" layihəsi bütün iştirakçı dövlətlərə, şirkətlərə, istehsalçı və istehlakçılara böyük fayda verəcək.

*Flora SADIQLI, "Azərbaycan"*

◆Milli maraqlar naminə əməkdaşlıq

# Hakimiyyət siyasi islahatları uğurla aparır

## Tahir KƏRİMLİ: "Vəhdət Partiyası Azərbaycan Prezidentinin daxili və xarici siyasətini tam və qəti şəkildə dəstəkləyir"

*Əvvəli 1-ci səh.*

Son aylarda bu şöbənin xətti ilə partiyalarla hakimiyyət arasında uğurlu dialoqun aparılması, şöbənin müdiri Ədalət Vəliyevin partiya sədrləri ilə görüşməsi ölkəmizin siyasi həyatında olduqca mühüm hadisə idi. Bu baxımdan siyasi sistemin komponentləri arasında yeni müzakirələrin - dialoqun başlamasını, ümumilikdə, yüksək qiymətləndiririk. Bütövlükdə, Azərbaycanda siyasi sistemin yeni konfiqurasiyası yaranmışdır. Bu da hakim Yeni Azərbaycan Partiyası ilə yanaşı, digər partiyaların da ölkəmizin siyasi-ictimai həyatında ciddi rol oynamalarını şərtləndirir".

Tahir Kərimlinin sözlərinə görə, yeni dialoq zamanı siyasi partiyalar tərəfindən onları düşündürən ölkədaxili məsələlər diqqətə çatdırılıb. "Ən mühümü odur ki, bu dialoqda siyasi partiyaların qaldırdıqları məsələlər hakimiyyət tərəfindən nəzərə alınır. Hesab edirəm ki, bütün bunlar ölkəmizin siyasi həyatında çox ciddi dəyişikliklərdir. Bununla da Azərbaycanda çoxpartiyalı sistemin yeni dönəminin başladığını da deyə bilərik. Digər tərəfdən, belə bir dialoq mühitinin formalaşması ilə siyasi partiyaların cəmiyyətdəki çəkisi yüksəlir. Onların parlamentdə təmsilçilik və iştirakçılıq imkanlarının artırılması da bunu təsdiq edir. Bütün bunlar siyasi islahatların uğurla aparılmasından xəbər verir", - deyə o bildirdi.

Qeyd olundu ki, bu prosesdə, ümumiyyətlə, cəmiyyətin müasirləşən siyasi həyatında Vəhdət Partiyası da yeni təşəbbüslərlə, proqram və təkliflərlə çıxış edir: "İlk növbədə, partiyamız bu islahatları alqışlayır, təqdir edir və prosesdə yaxından iştirak edir. Çünki bütün bunlar Vəhdət Partiyasının siyasi proseslərdə rolunu və iştirakını gücləndirir, proqram və platformalarını xalqa daha yaxından çatdırmaq imkanlarını artırır. Yeni siyasi dialoq zamanı Vəhdət Partiyası adından 30-dan artıq təklif və təşəbbüs təqdim olunub. Bunlardan yalnız biri partiyanın qərargahla təminatı məsələsinin öz həllini tapması ilə bağlı olub. Qalan təkliflər isə ölkə və cəmiyyət həyatının müxtəlif sahələri ilə bağlı idi və təkliflərin hər biri hörmətlə qarşılanıb".

Partiya sədri onu da əlavə etdi ki, bu dialoq iqtidarın müxalifətə uzatdığı əldir: "Güclü iqtidar müxalifətin inkişaf etməsini istəyir. Ən mühüm məsələlərdən də biri odur ki, iqtidar müxalifətin fikirlərini, təkliflərini yalnız dinləmir, həm də həyata keçirir. Ona görə də bu dialoq olduqca səmərəlidir".

Vəhdət Partiyasında siyasi dialoqdan irəli gələrək xüsusi qrup da yaradılıb. Bu barədə danışan Tahir Kərimli dedi ki, partiyanın təmsilçiləri media orqanlarında, saytlarda, internet televiziyalarında və sosial şəbəkələrdə ölkəmizdə yeni siyasi dialoq mühitinin formalaşmasına fəal münasibət bildirirlər. Bu zaman ana xətt ondan ibarətdir ki, Vəhdət Partiyası birmənalı şəkildə Azərbaycan Prezidentinin daxili və xarici siyasətini tam və qəti şəkildə dəstəkləyir. Bununla bağlı partiya 2006-cı ildə qərar qəbul etmişdir. "Ölkəmizin davamlı demokratik inkişafı, islahatların dərinləşdirilməsi, dövlətin siyasətinin xalqa çatdırılması üçün, əlbəttə, biz də öz töhfəmizi verməyə çalışırıq. Həm qanunvericilik orqanı xətti ilə, həm də yerlərdə seçicilərimizlə görüşlərdə iqtidara, onun həyata keçirdiyi fəaliyyətə, yürütdüyü siyasətə, apardığı islahatlara münasibətdə dəstəyimizi ifadə edirik. O cümlədən korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə iqtidarı tam dəstəkləyirik", - deyə həmsöhbətim bildirdi.



Siyasi dialoqda isə bütün partiyalar iştirak etmədilər. Özünü sağlam siyasi proseslərdən təcrid edən, marginallaşan müxalif qruplaşmalar sivil, konstruktiv dialoqdan boyun qaçırdılar. Bu barədə danışan Tahir Kərimli dedi ki, ölkəmizdə özünü radikal partiya kimi təqdim edən, lakin sosial bazasını itirmiş qruplar özlərini müxalifət hesab edirlər: "Belə qruplar çalışırlar ki, ölkədə xoşagəlməz bir hadisə baş versin və onlar da dərhal bundan faydalansınlar. Bu siyasi mübarizə yolu deyil. Koronavirus güclənir, bunlar sevinirlər, neftin qiyməti aşağı düşür, sevinirlər. Başa düşmürlər ki, dövlətin və xalqın ziyanına olan bu məsələlər iqtidarın siyasətinin nəticəsi deyil. Onlar bir dəfə də olsun Dağlıq Qarabağla, məcburi köçkünlərlə bağlı bəyanat verməyiblər. Beynəlxalq təşkilatların ikili standartlar mövqeyini tənqid etmirlər. Yalnız iqtidarın fəaliyyətində eyib axtarmağa çalışırlar. Bunların fəaliyyəti stəkanda fırtına yaratmaqdan başqa bir şey deyil. Bələlərinə, əslində, fürsətcil müxalifət demək lazımdır. Gözləyirlər ki, ölkəmizdə bir pislik olsun və bundan istifadə etsinlər. Elə bir məsələ yoxdur ki, parlamentdə təmsil olunan müxalifət onu səsləndirməsin. Amma bunlar müxalifətçiliyi söyüş platformasına çeviriblər. Başa düşmürlər ki, bunun axırı yoxdur."

Tahir Kərimli yenilənən siyasi münasibətlərdə partiyaların özlərinin də yenilənməsinin, təkmilləşməsinin əhəmiyyətini vurğuladı: "Şübhəsiz ki, müxalifət partiyalarının da öz fəaliyyətlərində təkmilləşməyə ehtiyacları var. Siyasi sistem dəyişir və bu zaman müxalifət də aparıcı rol oynamağa hazır olmalıdır".

Məlum olduğu kimi, altıncı çağırış Milli Məclisdə müxalifətin rəhbər strukturlarda iştirakçılığı artıb. Bu barədə danışan Vəhdət Partiyasının sədri dedi ki, Milli Məclisin idarəçiliyində, rəhbərlikdə müxalifətçilərin təmsil olunmaları mühüm hadisədir: "Bu gün Milli Məclisin Sədr müavini müxalifətçidir. Komitələrdə müxalifətçilər rəhbərlikdə təmsil olunurlar. Bütün bunlar müxalifətin dövlət idarəçiliyində iştirakının nümunələridir. Bu gün müxalifət Milli Məclisdə müzakirələrdə çox fəal iştirak edir, öz mövqeyini bildirir. Bütün bunlar siyasi partiyalarda məmnunluq hissi yaradır".

Azərbaycan dünyanın bir parçası, beynəlxalq aləmə açıq olan dövlətdir. Bu baxımdan ötən ilin sonlarından dünyanı bürüyən koronavirus infeksiyası ölkəmizdən də yan ötmədi. Tahir Kərimli ilə bu barədə də söhbətləşdik. Onun sözlərinə görə, Azərbaycan nadir dövlətlərdəndir ki, pandemiyaya qarşı güclü surətdə mübarizə apardı, vaxtında qabaqlayıcı tədbirlər həyata keçirdi: "Cənab Prezidentin sərəncamı ilə az qala Ermənistanın büdcəsi qədər sosial-iqtisadi sahəyə vəsait yönəldildi. Dövlət başçısı koronavirus pandemiyasından sahibkarların, işsizlərin əziyyət çəkməsinə imkan vermədi. Tibb müəssisələri ən qısa zamanda hazır vəziyyətə gətirildi, modul tipli xəstəxanalar tikildi, xaricdən laboratoriyalar alındı. Bütün bunların nəticəsində koronavirusun ciddi fəsadlara yol açmasının qarşısı alındı.

Pandemiyaya baxmayaraq, Azərbaycan bir dənə də olsun sosial proqramı ixtisar etmədi. Gəlirlərimiz azalsa da, islahatlar davam edir. Yeganə təəssüfləndirici hal insanların qoruyucu maskalardan istifadə etməməsi, sosial məsafəni gözləməmələridir. İnsanlar başa düşməli və məsuliyyətli olmalıdırlar ki, problemə son qoyulsun".

Eyni zamanda bir hüquqşünas kimi korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsindən məmnun olduğunu söyləyən Tahir Kərimli bildirdi ki, bu gün dövlətimiz uğurlu siyasətini davam etdirir: "Bunun da əsas səbəbi cənab Prezidentin yürütdüyü siyasətdir. İlham Əliyev dünyada ən böyük islahatçı dövlət xadimidir. Məhz İlham Əliyevin fəaliyyətinin nəticəsidir ki, Azərbaycan beynəlxalq səviyyədə söz sahibidir, onunla hesablaşırlar. Respublikamız çox yüksək imicə malikdir. İlham Əliyevə öz fəaliyyətində uğurlar arzu edirik və xalqımızın rifahı, vətənimizin yüksəlişi, ordumuzun qüdrətlənməsi, iqtisadiyyatımızın inkişafı, ictimai-siyasi həyatın daha da demokratikləşməsi üçün atdığı addımları tam dəstəkləyirik".

***Hazırladı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

# Baş Prokurorluq əhaliyə müraciət ünvanlayıb










Dövlət başçısının vətəndaş-məmur münasibətlərinin meyarlarını müəyyənləşdirən tövsiyələrindən irəli gələrək qanunçuluğun və vətəndaş məmnunluğunun təmin edilməsi, prokurorluq orqanlarında müraciətlərin qəbulu üzrə fəaliyyətin daha da təkmilləşdirilməsi, daxil olmuş ərizə və şikayətlərə dərhal baxılması, müraciət müəlliflərinin məlumatlandırılması və izahların verilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun 961 nömrəli Çağrı Mərkəzi və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı - "Qaynar xətt" əlaqə mərkəzi istirahət və bayram günləri də daxil olmaqla günün 24 saatı ərzində fəaliyyət göstərir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxil olan məlumat və müraciətlər zəruri tədbirlərin görülməsi məqsədilə dərhal Baş Prokurorluğun əlaqədar idarə və şöbələrinə çatdırılır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu fəaliyyət istiqamətləri üzrə, eləcə də prokurorluq işçilərinin qanunsuz hərəkətləri, ibtidai araşdırma və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı yol verilən pozuntularla üzləşən vətəndaşlara 961 nömrəli Çağrı Mərkəzinə, korrupsiya hüquqpozmaları ilə üzləşən vətəndaşlara isə 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə məlumat verilməsini tövsiyə edir.

---

# Otuz ildən çoxdur istifadəsiz qalan və yararsız vəziyyətə düşən su kanalı bərpa olunur

Ağsu rayonunda Yuxarı Şirvan kanalının Ağsu qolundan ayrılan, 4 kənddə 500 hektardan çox sahəni suvarma suyu ilə təmin edəcək 6 kilometrlik kanalda bərpa işlərinə başlanılıb.



AZƏRTAC xəbər verir ki, Musabəyli, Hacısəmədli, İlxıçı və Məlikçobanlı kəndlərinin su təchizatında xüsusi əhəmiyyəti olan bu kanal 30 ildir istismar olunmur və tamamilə yararsız hala düşüb. Respublikamızda su çatışmazlığı ilə əlaqədar Prezident İlham Əliyevin 2020-ci il 27 iyul tarixli Sərəncamı ilə təsdiq edilən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na və verilən konkret tapşırıqlara müvafiq olaraq Ağsu rayonunda da mövcud ehtiyatların üzə çıxarılması, onlardan maksimum səmərəli istifadə olunması istiqamətində tədbirlərə start verilib.

Meliorasiya və Su Təsərrüfatı ASC-nin Ağsu Suvarma Sistemləri İdarəsinin mühəndisi Elşad Tağızadə AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, tamamilə yararsız vəziyyətə düşən kanalın bərpasına 12 nəfər işçi qüvvəsi və 4 ədəd qazma texnikası cəlb olunub. Kanal yenidən qazılaraq dərinləşdirilir, kol-kosdan təmizlənir, çiyinlər qaydaya salınır. Qarşıdakı təsərrüfat mövsümünədək tam hazır olacaq kanal əkin sahələri ilə yanaşı, həyətyanı sahələrin də suvarılmasındakı çətinlikləri aradan qaldıracaq.

---

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 13 mart 2020-ci il və 03 aprel 2020-ci il tarixdə dərc edilmiş elanlar ilə əlaqədar bildiririk ki, 12 may 2020-ci il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə tələb olunan kənd təsərrüfatı mallarının satın alınmasına dair tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "AQRİ Kon" QSC elan olunmuş və 17 avqust 2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

*Təkrar*

**"Azərişıq" ASC Yevlax və Goranboy rayonları ərazisində Aqroparkın elektrik təchizatı üçün 35/0.4 kV-luq yarımstansiyanın tikintisi, avadanlıqların quraşdırılması, 35 kV-luq hava xəttinin çəkilməsi və 35/0,4 kV-luq KTM-lərin quraşdırılması işlərinin satın alınması məqsədilə**

***açıq tender elan edir***

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1** Yevlax və Goranboy rayonları ərazisində Aqroparkın elektrik təchizatı üçün 35/0.4 kV-luq yarımstansiyanın tikintisi, avadanlıqların quraşdırılması, 35 kV-luq hava xəttinin çəkilməsi və 35/0,4 kV-luq KTM-lərin quraşdırılması işlərinin satın alınması

**İştirak haqqı - 400 manat**
**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov, telefon: 440-39-93 daxili (23-71)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (**https://etender.gov.az/**).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 sentyabr 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **14 sentyabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **15 sentyabr 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

**B İ L D İ R İ Ş**

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Sumqayıt Kimya və Pirallahı Sənaye parklarında geodeziya və topoqrafiya işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 12 avqust 2020-ci il tarixli qərarına əsasən, "PLANET GEO" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

**B İ L D İ R İ Ş**

"Azərbaycan" qəzetinin 13 may 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında (**https://www.etender.gov.az**) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) İT sistemləri üçün yeni sertifikatların alınması, mövcud lisenziyaların və vendor texniki xidmətlərin müddətinin uzadılmasının satın alınması üzrə "R.İ.S.K. Elmi İstehsalat Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti qalib olmuşdur.

Qalib şirkətlə 17 avqust 2020-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

# Əhali səfalət içində, Paşinyan isə 1,3 milyon dollarlıq saat taxır

## Rüşvətxorluq və korrupsiyanın bütün sahələrdə dərin kök atması Ermənistanı ağır duruma salıb

*Əvvəli 1-ci səh.*

"İravunk" qəzeti yazır ki, "Yelk" müxalifət fraksiyasının lideri Paşinyanın ölkənin ən kasıb baş naziri sayıldığı günlər arxada qalıb. 2018-ci ilin yazında o, Ermənistanın yüksəkvəzifəli rəsmilərinin etika komitəsinə bir bəyannamə təqdim edib, onun bir il üçün qazancı təqribən 16 min dollar idi. Bu məbləğin 12 min dolları isə deputat maaşı hesab olunurdu: "Məlum oldu ki, Paşinyan və həyat yoldaşının xarici aktivləri, bank hesabları və ya qiymətli kağızları yoxdur. Bununla yanaşı, Ermənistan hökumətinin başçısı heç bir daşınmaz əmlaka sahib deyildi. Ermənistanın birinci xanımı Anna Akopyanın 2018-ci ilin əvvəlində vergi vəsaiti 1000 dollar təşkil edib və ilin sonuna qədər bu məbləğ dəyişməyib".

Qeyd olunur ki, bir vaxtlar "korrupsiyaya qarışsam, Ermənistan vətəndaşlarını məni meydanda asmağa çağırıram", - deyən Paşinyanın ailəsinin artıq Kanadada malikanə alması ilə bağlı məlumatlar yayılıb: "Baş nazirin tərəfdarları bunun qarayaxma kampaniyası olduğunu deyirlər. Lakin biz də Ermənistandakı korrupsiya və yoxsulluğa qarşı mübarizə aparan Nikol Paşinyanın taxdığı 1,3 milyon dollara "Patek Phillippe" saatının fotosuna baxaraq gözlərimizə inanırıq".

Bunların fonunda bütün sferalarda yaranan və gündən-günə dərinləşməkdə olan problemlərdən yaxın perspektivdə xilas üçün əhalidə heç bir ümid yoxdur. Bunu şərtləndirən əsas səbəblərdən biri kimi baş nazir seçildikdən sonra verdiyi heç bir vədə əməl etməyən Nikol Paşinyan iqtidarının konkret plan və proqramlara malik olmamasıdır. Digər səbəb isə hakimiyyətdə yer alan bəzi vəzifəli şəxslərin səlahiyyətlərindən sui-istifadə edərək korrupsiya və rüşvətxorluqla məşğul olmalarıdır. İşğalçı ölkənin özündə də açıq etiraf edilir ki, korrupsiya və rüşvətxorluq bir dövlət olaraq Ermənistanın tənəzzülünü daha da sürətləndirir. Bunun nəticəsidir ki, hətta rəsmi dairələrin özləri belə dövlətin bütün strukturlarında dərin kök salmış korrupsiyanın miqyasının təhlükəli həddə qədər yüksəlməsini gizlətməkdə acizlik çəkirlər.

Dəfələrlə mətbuata verdiyi açıqlamalarda Paşinyan korrupsiya və rüşvətxorluğun ölkəsi üçün kifayət qədər ciddi problem yaratdığını diqqətə çatdırıb, buna qarşı mübarizə aparıldığını bildirsə də, müxalifət baş nazirin açıqlamalarının gülməli xarakter daşıdığını və yalnız kütləyə hesablanmış fikirlər olduğunu bəyan edib.

"4rd.am" saytı yazır ki, ölkənin baş korrupsionerinin korrupsiyaya qarşı mübarizə aparılacağı haqqında söylədikləri xalqı ələ salmaqdan başqa heç bir məna daşımır. Qeyd olunub ki, hələ 2 il bundan öncə baş nazir korrupsiya ilə mübarizə aparacağını bildirirdi. Lakin o vaxtdan bəri keçən illər ərzində Ermənistanda korrupsiyanın miqdarı daha da genişləndi. Rüşvətxorluq bu gün cəmiyyətdə adi qarşılanan bir hala çevrilib: "Faktlar sübut edir ki, hazırda yeni iqtidar elə korrupsion sistem formalaşdırıb ki, orada məmurlar özlərinə böyük gəlir götürürlər. Ermənistanda bu və ya digər məmur asan qazanc əldə etmək məqsədilə vəzifə səlahiyyətindən sui-istifadə etməyi adi hala çevirib, bununla bağlı məmurların fəaliyyət dairəsi daim genişlənməkdədir. Təsadüfi deyil ki, Ermənistanda əsas iş adamları kimi yalnız yüksəkçinli məmurlar çıxış edir və sözügedən ölkənin mövcud reallığı kontekstində hakimiyyət və biznesin tam qovuşmasını görmək mümkündür. Ermənistanın iqtisadi cəhətdən sürətlə çökməsinin əsas səbəblərindən biri də hədsiz miqdarda varidata sahib olan yüksəkçinli məmurların gündən-günə artan korrupsiyasıdır".

Bütün bunlar Ermənistanı kifayət qədər narahat günlər gözlədiyindən, ölkənin üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş “Azərbaycan-2020: gələcəyə baxış” inkişaf konsepsiyasında müəyyənləşdirilmiş hədəflərin reallaşdırılması, habelə turizm sahəsində irimiqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın davamlı inkişafı təmin edilmişdir. Xüsusilə ölkəmiz müstəqillik əldə etdikdən sonra qeyri-neft sektorunun ən gəlirli sahələrindən olan turizm sektoru sürətlə inkişaf etməyə başlamışdır.

*Kurort şəhəri*

## Naftalan turistləri qəbul etməyə hazırdır












İndi nəinki paytaxt Bakıda, eləcə də bölgələrimizdə beynəlxalq standartlara cavab verən çoxlu sayda istirahət məkanları yaradılmışdır ki, həmin yerlərdə hər il on minlərlə yerli və xarici turist dincəlir.

Ölkəmizin mülayim iqlimi, gözəl təbiət mənzərələri, meşələri, dağları, çayları, şəlalələri, eləcə də tükənməz mineral su ehtiyatları, müalicə palçıqları imkan verir ki, insanlar bu yerlərdə dincəlməklə yanaşı, öz sağlamlıqlarını da bərpa etsinlər. Belə məkanlardan biri də Naftalandır ki, ilin bütün fəsillərində bura yerli və əcnəbi turistlərlə dolu olur.

Sağlamlıq turizmi son illər dünyada sürətlə inkişaf edən bir sektora çevrilmişdir. Məhz buna görə də dövlət başçısının diqqət və qayğısı ilə son illər bu sağlamlıq ocağı da öz əvvəlki şöhrətini qaytarmış, uzunsürən durğunluqdan sonra yenidən qapılarını istər yerli, istərsə də xarici qonaqların üzünə açmışdır. Nəticədə hər il on minlərlə insan burada dincəlmiş, yaxud da müalicə olunaraq sağlam vəziyyətdə öz ölkələrinə qayıtmışlar. Qeyd edək ki, 19 xəstəliyin dərmanı olan Naftalan nefti yüz minlərlə xəstəyə şəfa vermişdir. Təkcə keçən il Naftalana Rusiya Federasiyası, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Ukrayna, Latviya, Almaniya, Türkiyə, Kanada, İsrail, Polşa, Fransa, İspaniya, Yaponiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdən 12 minə yaxın xarici turist gəlmişdir. Lakin son vaxtlar COVID-19 pandemiyası ilə əlaqədar sərhədlərin bağlanması digər sahələr kimi turizm sektorunda da durğunluq yaratmışdır. Xüsusilə insanların şəfa tapdıqları Naftalanda fəaliyyət göstərən sanatoriyalar çətinliklərlə üzləşmişdir. Ancaq naftalanlılar bütün bu çətinliklərin müvəqqəti xarakter daşıdığını dərk edir və turist qəbuluna hazırlıq işlərini genişləndirirlər.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov söhbət zamanı bütün bu çətinliklərin müvəqqəti olduğunu qeyd etdi. Bildirdi ki, turistlərin yüksək səviyyədə qəbulu üçün şəhərdə çoxsaylı hazırlıq işləri görülür. Abadlıq və yenidənqurma bir an belə dayandırılmayıb. İndi şəhər rəhbərliyi əhalinin koronavirusdan qorunması ilə bağlı operativ tədbirlər həyata keçirməklə yanaşı, abadlıq işlərini də sürətlə davam etdirir.

Öyrəndik ki, bu yaxınlarda Naftalan Şəhər İcra Hakimiyyəti, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə təşkilatçılığı ilə Naftalan şəhərinin turizm inkişaf planının təqdimatı olmuşdur. Burada qeyd edilmişdir ki, hazırda şəhərdə üçü 5 ulduzlu olmaqla, 12 sanatoriya fəaliyyət göstərir. Bundan başqa, “Naftalan Hotel & Spa” və tikintisi davam etdirilən 3 yeni hotel-sanatoriya yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Turistlərin yüksək səviyyədə qəbulu üçün aparılan hazırlıq işləri çərçivəsində şəhər icra hakimiyyətində sanatoriya-kurort müəssisələrinin rəhbərləri ilə də görüş keçirilmişdir. Görüşdə çıxış edənlər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün ölkəmizdə, o cümlədən Naftalanda münbit şərait yaradıldığını qeyd etmiş və onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər. Sonra mövcud vəziyyət ətraflı təhlil edilmiş, qarşıda duran vəzifələrlə bağlı fikir mübadiləsi aparılmışdır.

Pandemiyadan sonra şəhərə gələcək yerli və xarici turistlərin rahatlığı üçün bir sıra tədbirlər də həyata keçirilmişdir. Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və “Naftalan Müalicə və Sağlamlıq Mərkəzi”nin dəstəyi ilə bura gələn turistlərin məmnunluğunu və onların rahat gediş-gəlişini təmin etmək məqsədilə Goran dəmiryolu stansiyasından Naftalan istiqamətinə işləyəcək müasir standartlara cavab verən sərnişin avtobusu ayrılmışdır. Bunun üçün “Azərbaycan Dəmir Yolları” QSC rəhbərliyi ilə aparılan danışıqlar öz bəhrəsini vermiş və Bakı-Gəncə sürət qatarı fəaliyyətini yenidən bərpa etdikdən sonra qatarın Goran stansiyasında dayanması təmin ediləcəkdir.

Naftalan Şəhər İcra Hakimiyyəti turistlərin bu unikal bölgəyə səfərlərinin təşkili məqsədilə innovativ texnologiyaların tətbiqinə də üstünlük verir. Respublikamızda ilk dəfə Naftalanda satıcısız fəaliyyət göstərən mağaza istifadəyə verilmişdir. Mağazanın açılması xarici turistlərdə böyük maraq doğuracaqdır.

Avropa və Amerika qitələrində müxtəlif yaş kateqoriyalarında böyük oxucu kütləsi qazanmış “Little Free Library” kitabxanası da artıq Naftalanda fəaliyyətə başlamışdır. Kitabxananın açılmasında əsas məqsəd əhali arasında kitaba həvəs oyatmaq və onların maariflənməsinə kömək etməkdir. Burada rus, ingilis və türk dillərində hər yaşa uyğun kitablar vardır.

Son illər həyata keçirilən genişmiqyaslı tədbirlər söz yox ki, bu sağlamlıq mərkəzinin simasını da başdan-başa dəyişmişdir. Pandemiyanın hökm sürməsinə baxmayaraq, hazırda şəhərdə abadlıq və yenidənqurma işləri sürətlə davam etdirilir. Bu kurort şəhərinə gələn yerli və xarici turistlərin zövqünü oxşamaq üçün burada yeni istirahət mərkəzləri yaradılmaqla yanaşı, küçələr yenidən qurulur, çoxmənzilli yaşayış binalarının dam örtüyündə təmir işləri aparılır. Həmçinin şəhərdə olan 3 doqquzmərtəbəli yaşayış binasının fasad hissəsindəki şüşə üzlüklər yuyularaq təmizlənir.

Şəhərdə yaşıllaşdırma işlərinə də diqqətlə yanaşılır. Artıq Bayraq meydanı ərazisində, Şirvan prospektində 5 minə yaxın ağac və gül kolları əkilmişdir. Bundan başqa, şəhərdəki park və xiyabanlarda da yaşıllaşdırma işləri aparılır.

Göründüyü kimi, bütün dünyada, o cümlədən respublikamızda pandemiya epidemiyasının hökm sürməsinə baxmayaraq, Naftalanda yerli və xarici turistlərin yüksək səviyyədə qəbuluna hazırlıq işləri sürətlə davam etdirilir. Şəhər sakinləri əmindirlər ki, insanlar yaxın vaxtlarda COVID-19 bəlasından xilas olacaq, öz sağlamlıqlarına qovuşmaq üçün yenidən Naftalana üz tutacaqlar.

***Sabir ƏLİYEV, “Azərbaycan”***

## Azarkeşlər yeni stadionun açılacağı günü gözləyirlər

Sumqayıtlılar idmana maraq və həvəslə yanaşırlar. Şəhərin idmançıları dəfələrlə dünya və Avropa çempionatlarının qalibi olmuş, mötəbər yarışlardan vətənə medallarla dönmüşlər.





Bütün idman növləri içində futbol həmişə çoxsaylı azarkeşləri ilə fərqlənmişdir. Sumqayıtda yerləşən və 60 il əvvəl istifadəyə verilmiş Mehdi Hüseynzadə adına Stadion müasir tələblərə cavab vermirdi və yarış günləri azarkeşlərin çoxu yer darısqallığından oyunları canlı izləyə bilmirdi. Buna görə də yeni stadionun tikintisinə ehtiyac vardı.

Hazırda həmin ərazidə yeni stadion inşa edilir. Şəhər stadionunun tikintisinə ilin əvvəlindən başlanılıb. Bu məqsədlə Prezidentin dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5 milyon manat vəsait ayrılıb.

Artıq stadionun tribunalarının tikintisi işləri aparılır. Tikinti işləri qrafikə uyğun olaraq həyata keçirilir. Material təminatında isə heç bir problem yoxdur.

İdman arenası beynəlxalq standartlara uyğun inşa edilir. Bu da stadionda ölkə və beynəlxalq əhəmiyyətli oyunların keçirilməsinə imkan verəcək. Yeni tikilən stadionun gələn il istifadəyə verilməsi nəzərdə tutulub.

Qeyd edək ki, stadionun yeni quruluşu da maraq doğurur. Belə ki, stadionun qarşısında xüsusi materialdan hazırlanmış iki futbolçunun mücadilə formatlı heykəl - hərəkətli fəvvarə kompleksi də ucaldılacaq. Bu fəvvarələr dünya futbolunda məhşur “Braziliya dalğası” rolunu oynayacaq.

Mütəxəssislər bildirirlər ki, Sumqayıt stadionunun yeni dizaynı modern üslubda olmaqla şəhər memarlığına böyük töhfə verəcək. Əvvəlki stadion tikililərində əsasən eksteryer tərtibata bir o qədər də diqqət yetirilmirdisə, indi buna xüsusi diqqət yetirilib.

Həmçinin stadionun ərazisində müxtəlif formalarda idmançıların heykəlləri də yerləşdiriləcək. Stadionda təkcə futbol yarışları keçirilməyəcək. Burada müxtəlif idman yarışlarının da keçirilməsi nəzərdə tutulur. Bu, stadionun olimpik statusda olmasına gətirib çıxaracaq.

***A.ƏLİYEV, “Azərbaycan”***

## Tovuzda yeni tütünqurutma müəssisəsi fəaliyyətə başlamışdır





Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizdə ixracyönümlü və ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində tütünçülüyün inkişaf etdirilməsi də qarşıya məqsəd kimi qoyulmuşdur.



Bu vəzifənin yerinə yetirilməsində dövlət başçısının imzaladığı “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət proqramı” böyük əhəmiyyət kəsb edir. Proqram çərçivəsində Tovuz rayonunda istehsal olunmuş tütün məhsullarının tədarükü, saxlanılması və emalı məqsədilə tütünqurutma müəssisəsinin yaradılması nəzərdə tutulmuşdur. Dövlət proqramının icrası çərçivəsində “Tovuz Aqro Sənaye” MMC-də yaradılmış tütünqurutma müəssisəsi bu günlərdə fəaliyyətə başlamışdır.

Əvvəllər Tovuzda istehsal olunan yaş tütün yarpaqları 250-300 kilometr aralıda yerləşən digər rayonların tütün qəbulu məntəqələrinə təhvil verilirdi. Bu isə yaş tütün məhsulu istehsalçıları üçün iqtisadi cəhətdən səmərəli deyildi. Tovuzda tütünqurutma müəssisəsinin yaradılması ilə həmin problemin həlli rayonda və bölgədə tütünçülüyün inkişafı üçün geniş imkanlar yaratmışdır.

Bu il rayonda tütünçülüklə məşğul olan fermerlər və digər istehsalçılar 50 hektar sahədə tütün əkmişlər. Bir neçə gündür ki, tütün yarpağının yığımına başlanılmışdır. Qısa müddət ərzində 100 tona yaxın yaşıl tütün yarpağı sahələrdən dərilərək birbaşa tütünqurutma məntəqəsinə təhvil verilmişdir.

Müəssisədə yaş tütün yarpağı qurudularaq texnoloji prosesin son məhsulu kimi fabrikə kipləşdirilmiş halda göndərilir. Quru yarımfabrikat istehsalı tamamilə müasir texnologiyalar əsasında həyata keçirilir. Bunun üçün tam avtomatlaşdırılmış həmin məntəqəyə 10 ədəd termopilin avadanlığı gətirilmişdir.

***S.ƏLİYEV, “Azərbaycan”***

## Qubadlının tarixindən xəbər verən eksponatlar

Ötən əsrin qanlı işğal tariximizin səhifələrindən biri də Qubadlıya aiddir. 27 ildir ki, qubadlılılar doğma yurdun həsrəti ilə yaşayır və ora dönəcəkləri günü gözləyirlər. Rayonun bərəkətli düzləri, dağları, kəndləri, yaşayış evləri, səhiyyə, ticarət, mədəniyyət, idman obyektləri düşmənin işğalı altındadır. Hazırda rayonun yeraltı, yerüstü sərvətləri erməni işğalçıları tərəfindən talan edilməkdədir.

27 illik zaman kəsiyi keçməsinə baxmayaraq, qubadlılılar öz tarixi torpaqlarını unutmur, doğma yurdlarına qayıdacaqları günü gözləyirlər. Qədim Azərbaycan yaşayış məskənlərindən olan Qubadlının tarixi bu gün məcburi köçkünlük şəraitində belə öyrənilir, araşdırılır.

Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1980-ci il may ayının 6-da fəaliyyətə başlayıb. Muzey rayonun əhalisinə, eləcə də Qubadlıya gələn qonaqlara xidmət göstərmişdir.

Rayonun ictimaiyyəti, idarə və müəssisələr, məktəblilər muzeyə gələrək eksponatlarla yaxından tanış olur, lazımi anlarda muzeyə öz köməklərini göstərirdilər. Əhalinin köməyi nəticəsində muzeyin fondu daha da zənginləşdirilmişdi. Muzeylə əhali arasında sıx əlaqələr yaranmışdı. Muzey əhalinin daha çox istifadə etdiyi mədəniyyət ocaqlarından biri idi. Əhalinin köməyi, muzey işçilərinin fəallığı sayəsində muzeydə müxtəlif mövzularda kütləvi tədbirlər keçirilirdi.

1993-cü ildə, rayonun işğalından sonra Qubadlı Tarix - Diyarşünaslıq Muzeyi Sumqayıt şəhərindəki 28 May Mədəniyyət Sarayında yerləşdirildi. Sahəsi 20 kvadratmetrlik bir otaqda rayondan çıxarılması mümkün olan eksponatlar üst-üstə yığılmışdı.

1993-1996-cı illər ərzində muzey əməkdaşları siyahı əsasında rayonun təşkilatlarında, şəxsi adamlarda olan eksponatları toplaya bildilər. Rayon icra hakimiyyəti aparatı bu sahədə muzeyə qeydiyyatı olan bütün eksponatların geri qaytarılmasına yaxından kömək etdi. Qubadlı Tarix - Diyarşünaslıq Muzeyinin direktoru Vaqif Babayev o günləri belə xatırlayır:

- Yaşı yüz illərlə ölçülən eksponatları topladıqdan sonra vaxtaşırı Qubadlının Sumqayıtdakı məktəbləri ilə əlaqələr yaratdıq. İllər keçdikcə gənclərimizin Qubadlı haqqında məlumatlanması üçün xüsusi proqram hazırladıq. Onu da deyim ki, 1998-ci ildən başlayaraq hər tədris ili başlayanda kiçik otaqda da olsa məktəblilərin ekskursiyalarını təşkil etdik. İşğaldan sonra muzeyin fonduna 700-ə yaxın eksponat toplaya bildik. Çünki hər bir kəs öz doğma elinin tarixini öyrənməli, ona hörmətlə yanaşmalıdır.





Nəhayət, muzey əməkdaşları 2013-cü ilin avqustunda tikintisi yenicə başa çatan Qubadlı Rayon İcra Hakimiyyətinin inzibati binasında onlar üçün ayrılan yerə köçdülər. Hazırda işıqlı, geniş otaqlarda yerləşən muzey normal şəkildə fəaliyyət göstərir. Bütün eksponatlar muzeydə səliqə ilə nümayiş etdirilir. Burada rayonun işğal altında olan 93 kəndi barədə geniş məlumatlar var.

Muzeyin girəcəyində respublikamızın dövlət atributları yerləşdirilib. Böyük zalda müxtəlif guşələr var. “Heydər Əliyev və Azərbaycan” guşəsində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər diqqəti cəlb edir. Ümummilli Liderin Qubadlı rayonunun sakinləri ilə görüşlərindən xatirə şəkilləri muzeyin bəzəyidir desək, səhv etmərik. Burada həmçinin Qubadlı şəhidləri, kəndləri, rayonun ictimai həyatında rol oynamış insanlar barədə məlumatlar var.

Yaşı yüz illərlə ölçülən mis, saxsı qablar, məişət əşyaları (cəhrə, həvə, kirkid və s.) bizi keçmişə qaytarır. Muzeydə həmçinin əslən Qubadlıdan olan yazıçıların, elm və mədəniyyət xadimlərinin kitabları numayiş olunur. Burada Xalq qəhrəmanı Qaçaq Nəbi və Milli qəhrəmanlara aid guşə də fəaliyyət göstərir. Muzeydə Xalq qəhrəmanları Qaçaq Nəbi və Həcərə aid əşyalar, onların qəhrəmanlıqlarını əks etdirən rəsm əsərləri də qorunub saxlanılır. Karantin rejimindən öncə muzeyə gələnlər Qubadlının tarixi ilə yaxından tanış olur, işğal altında olan rayonun kəndləri, relyefi, təbii sərvətləri, mədəniyyət ocaqları ilə maraqlanırdılar.

Pandemiya dönəmində muzey işçiləri zamanla ayaqlaşaraq onlayn sistemdə çalışırlar. Muzeyin onlayn ekskursiya bələdçisi A.Bədəlova hazırlanan rolikləri sosial şəbəkələrdə təqdim edir. Qubadlı şəhidləri, rayona virtual səyahət, xalçaçı rəssam Abbasquluzadə, Aprel döyüşlərinin qəhrəmanları və ümumilikdə, onlarca rolik hazırlanıb onlayn təqdim edilir. Həmçinin ətraf rayonların muzeyləri ilə video müsahibələr keçirilir.

Əsas məsələlərdən biri hazırda dezinfeksiya işləridir. Muzeydə vaxtaşırı dezinfeksiya işləri aparılır, eksponatlar xüsusi məhlullarla silinərək təmizlənir. Burada növbəlilik sistemi ilə işlər davam etdirilir. Elektron saytın, muzey səhifəsinin mütəmadi işlək olması əməkdaşlar tərəfindən daim nəzarətdə saxlanılır. Məlumat üçün bildirək ki, son aylarda onlayn şəkildə minlərlə insan muzeyin elektron səhifələrinin izləyicisi olmuşdur. Təkcə respublika daxilində deyil, dünyanın bir çox ölkələrindən olan insanlar maraqlı şərhlər yazmış, pandemiyadan sonra muzeyi canlı şəkildə ziyarət edəcəklərini bildirmişlər. Sosial şəbəkələrdən canlı görüşə çevriləcək əməkdaşlığın gələcək üçün böyük əhəmiyyəti var. Bu, həm də ölkəmizə turist axınının artması deməkdir.

Bu gün Qubadlı işğal altındadır. Ötən illər bizi bir an belə oradan ayırmamışdır. Ötənlərin yadigarı olan hər nə varsa qorunmalıdır. Çünki tariximizi, mədəniyyətimizi, mənəviyyatımızı yaşadan dünənimiz sabahımıza açılan yolun bu günüdür. Oradan başlayan hər nə varsa qorunmalı və gələcəyimiz olan nəsillərə ötürülməlidir. Keçmişdən gələcəyə daşınan ənənələr isə sabah üçün gərəklidir. Gərəkli olanı isə qorumaq borcumuzdur.

***Akif ƏLİYEV, “Azərbaycan”***

*Şəkillər xüsusi karantin rejimindən əvvəl çəkilib.*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC Bakı şəhərində yerləşən 21 saylı poçt şöbəsinin təmiri və mebel avadanlıqları ilə təchizi işləri layihəsi üzrə

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

**LOT 1 Bakı şəhərində yerləşən 21 saylı poçt şöbəsinin təmiri və mebel avadanlıqları ilə təchizi işləri**

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

**LOT 1 150 manat**

məbləğində pul vəsaitini "ASAN ödəniş" sistemi ilə bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

**İştirak haqqı LOT üzrə ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tikinti işlərinin aparılması üçün müvafiq lisenziyanın olması;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 08 sentyabr 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 16 sentyabr 2020-ci il saat 11:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 17 sentyabr 2020-ci il saat 11:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Quliyev Zülfiqar - tel.: (+99412) 493-56-00, faks: (+99412) 493-00-37.

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
41,60 (qırx bir manat altmış qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## B İ L D İ R İ Ş

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən 16.07.2020-ci il tarixdə yumşaq inventarların satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusu Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 10.08.2020-ci il tarixli qərarına əsasən ləğv olunmuşdur.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsi aşağıdakı işlərin satın alınması məqsədilə

### *təkliflər sorğusu elan edir*

Daxili İşlər Nazirliyinin Tibb İdarəsinə bilavasitə tabe olan A.N.Heydərov adına Respublika hospitalında olan havalandırma sistemlərində yaranmış nasazlığın aradan qaldırılması işlərinin satın alınması

Maraqlanan təşkilatlar **(012) 562-83-15** nömrəli telefonla əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusu **21 avqust 2020-ci il saat 12:00-da** keçiriləcəkdir.

İştirak etmək üçün sənədlər **20 avqust 2020-ci il saat 17:00-dək** qəbul olunur.

Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161

***Tender komissiyası***

## Qobustan Rayon İcra Hakimiyyəti büdcədənkənar vəsaitləri hesabına Bəklə-Nabur yolunun (Y-37-06 (10 km) 1 km hissəsinin təmir-tikinti işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

LOT: 1 Bəklə-Nabur yolunun (Y-37-06 (10 km) 1 km hissəsinin təmir-tikinti işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərlərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs: Fazil Müslümov, telefon: (020) 245-27-54

Ünvan: Qobustan şəhəri, Heydər Əliyev prospekti, 1.

Tenderdə iştirak etmək istəyənlər dövlət satınalmalarının vahidi internet Portalında "ASAN ödəniş" sisteminə keçid edərək iştirak haqqını aşağıda göstərilən hesaba nağdsız ödəniş etməklə Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu elektron Portal üzərindən əldə edə bilərlər.

**İştirak haqqı:**

**LOT 1: 200 manat**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**14 saylı Regional Xəzinədarlıq İdarəsi**
**B1. Benefisar (alan bank)**
**Adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT. Bik: CTREAZ22**
**B2. Alan müştəri**
**Adı: Qobustan YXO**
**Hesab: AZ08CTRE00000000000002112831**
**VÖEN: 4800016471**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışlar Tender komissiyasının adına olmalıdır);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti (Forma 1, Forma 2);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının gördüyü analoji işlər haqqında məlumat;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *digər sənədlər, o cümlədən maddi texniki bazası, maşın, mexanizm və digər texnikanın mövcudluğu.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. Xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **08.09.2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **16.09.2020-ci il saat 11:00-dək** Portal vasitəsilə Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan təkliflər qəbul olunmayacaqdır.

Tender təklifləri **17.09.2020-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

LOT 1 - Təsərrüfat mallarının satın alınması;
LOT 2 - Havalandırma qurğuları üçün sərfiyyat materiallarının satın alınması;
LOT 3 - Çap və nüsxələmə avadanlıqlarına texniki xidmətin satın alınması.

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar Təsərrüfat mallarının satın alınması və Havalandırma qurğuları üçün sərfiyyat materiallarının satın alınması üzrə 100 AZN, Çap və nüsxələmə avadanlıqlarına texniki xidmətin satın alınması üzrə isə 20 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 08 sentyabr 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 16 sentyabr 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 17 sentyabr 2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi işlərinin satın alınması məqsədilə 24 iyul 2020-ci il tarixdə elan etdiyi kotirovka sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi "Referans Klinik Laboratoriya Mərkəzi" MMC müəyyən edilmişdir.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# İrandan Azərbaycana külli miqdarda narkotik vasitə keçirilməsinin qarşısı alınıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.

Cari ilin 17 avqust tarixində, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin Astara rayonu Sım kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədindən külli miq-



darda narkotik vasitənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınmışdır. Sərhəd pozucuları hava şəraitinin qaranlıq və dumanlı olmasından istifadə edərək qaçaqmalı hadisə yerində ataraq sərhəd naryadının təqibindən İran İslam Respublikası istiqamətində geri qaçmışlar.

Hadisə yerinə baxış zamanı ümumilikdə çəkisi 1 kq 930 qram heroin, 1 kq 500 qram metafitamin, 6 kq 990 qram tiryək, 1 kq 25 qram həşiş növünə oxşar narkotik vasitələr, 2500 qram "Metodon 40", 20 həb "Klonozepam" və 40 həb "Zolpidem" psixotrop maddələr, 5 ədəd "Ardene" mazı, 5 ədəd "Klobetasol" dərman preparatları aşkar olunaraq götürülmüşdür

Hazırda fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Xarici İşlər Nazirliyinin rəhbərliyi və kollektivi sabiq Xarici İşlər naziri Elmar Məmmədyarova anası

**İZİDA İBRAHİMBƏYOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı

**TELMAN TANRIVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7277
Sifariş 1937
Qiyməti 40 qəpik